RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 200 (8793) BAZAR, 19 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# "Əsrin müqaviləsi"ndən "Cənub qaz dəhlizi"nədək...

## Heydər Əliyevin əsasını qoyduğu və İlham Əliyevin qlobal layihələrlə inkişaf etdirdiyi neft-qaz strategiyası Azərbaycana yeni uğurlar qazandırır

Azərbaycanın yeni neft strategiyasına start verən "Əsrin müqaviləsi"nin imzalanmasından 27 il keçir. Bu gün Azərbaycan neftçiləri həmçinin özlərinin peşə bayramını qeyd edirlər. Sentyabrın 20-si Azərbaycan üçün "Cənub qaz dəhlizi"nin təməlinin qoyulduğu gün kimi də əlamətdardır. Bu tarixi hadisə isə 7 il əvvəl - "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümü günü Səngəçal terminalında baş vermişdir.

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və dünyanın 11 aparıcı neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) imzalanması Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və gərgin səyi ilə gerçəkləşdi. Bu kontrakt miqyasına və əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını aldı.

Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə "Əsrin müqaviləsi"nin qarşıdakı inkişaf yolunun, nəhəng işlərin başlanğıcı olduğunu demişdi. Zaman göstərdi ki, bu, həqiqətən də, gələcək əsrlərə hesablanmış bir sazişdir. "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan böyük inkişaf yoluna qədəm qoydu. Onun reallaşması təkcə Azərbaycan üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyət kəsb etdi. Bu saziş regionda digər qlobal layihələrin gerçəkləşməsinə yol açdı, Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırdı, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu.

Ardı 2-ci səh.

# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Musiqi Günü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Musiqi Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "18 Sentyabr Milli Musiqi Günüdür. Bu gün doğum günlərini qeyd etdiyimiz görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin əziz xatirəsini ehtiramla yad edirəm.

Azərbaycan xalqı milli musiqi mədəniyyətimizin inkişafına və dünyada tanıdılmasına töhfə vermiş görkəmli bəstəkarlar, dirijorlar, ifaçılar nəsli ilə haqlı olaraq fəxr edir. Öz sələflərinin nadir irsinə bağlılığı qoruyub saxlamaqla musiqimizi yeni səslər, ifalar və yanaşmalarla zənginləşdirən bütün musiqiçilərə təşəkkürümü bildirirəm. Sizin hamınıza tükənməz ilham, enerji, yaradıcılıq uğurları və nailiyyətlər arzulayıram!"

◆ Tarixin izi ilə

# Saxta erməni iddiaları

## XX əsrin əvvəllərində indiki Ermənistanda 2310 coğrafi addan 2000-ə qədəri türkmənşəli olub

Tarixdə vandallığı ilə seçilən, qonşu torpaqlarına göz dikən ermənilər 200 ilə yaxındır Qərbi Azərbaycanda tariximizi saxtalaşdırmağa, türkmənşəli toponimləri dəyişdirib erməniləşdirməyə çalışırlar. Ermənilər (oxu: haylar) tarixdə bir neçə dəfə Azərbaycan türklərinə qarşı amansızlıq törədib, hətta onları öz ata-baba yurdlarından deportasiya etməyə müvəffəq olublar. Tarixçilər bildirirlər ki, daşnakların məqsədi türklərə aid torpaqları ələ keçirmək, onları öz yurdlarından çıxarıb "dənizdən-dənizə böyük Ermənistan" xülyasını gerçəkləşdirmək olub.

Elə bu faktı göstərək - türk tarixində, coğrafiyasında, mənəviyyatında, eposlarında önəmli yer tutan Ağrı dağının adının ermənilər tərəfindən dəyişdirilməsini.

Ağrı dağını Ararat adlandırmaqla onların məqsədləri özlərini bu yerlərin guya ulu sakinləri kimi dünyaya göstərməkdir. Hansı ki, Ağrı dağı türklərin milli simvollarından biridir.

Toponimlərimizin saxtakarcasına erməniləşdirilməsini təsdiq və ifşa edən arxiv materialları yetərincədir. Konkret desək, Azərbaycan Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixli sərəncamına əsasən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Azərbaycan, rus və ingilis dillərində çap olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsi saxta erməni iddialarını alt-üst edir. Həmin sərəncamda bildirilir ki, son vaxtlar ayrı-ayrı ölkələrdə Azərbaycanın ərazi bütövlüyünün, tarixi və coğrafi adlarının təhrif olunması, inzibati ərazi vahidlərinin, sərhədlərinin dəyişdirilməsi istiqamətində təxribat xarakterli materialların xəritələrdə və KİV-də yayılması halları artıb.

Ardı 3-cü səh.

# Minaatan bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun minaatan bölmələri ilə keçirilən intensiv döyüş hazırlığı məşğələləri davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşğələlərdə batareyanın atəş mövqeyini tutması və komanda müşahidə məntəqəsinin açılması tapşırıqları icra olunur.

Minaatan qurğuları tələb olunan vaxt çərçivəsində atəş vəziyyətinə gətirilir, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilir.

Təlimə cəlb olunan şəxsi heyət hədəfləri sərrast atəşlə məhv edir.

◆ Yeni dərs ili qarşısında

# Regionlarda yeni məktəb binaları tikilir

Azərbaycan torpaqlarının 30 illik erməni işğalında olması, iki ilə yaxın davam edən COVID-19 pandemiyası ölkəmizin təhsil sisteminə də təsirsiz ötüşməyib. Buna baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin sosialyönümlü sərəncamlarının icrası çərçivəsində, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqlarına əsasən respublikamızda məktəb tikintisi uğurla davam etdirilib.

Dövlət başçısının bəyan etdiyi kimi, son illər təhsil ocaqlarının inşası sahəsində böyük işlər görülüb, maddi-texniki baza gücləndirilib. 3500-dən çox məktəb yenidən tikilib, əsaslı təmir edilib: "Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb. Ancaq həllini gözləyən məsələlər də həyatda öz həllini tapmalıdır və burada vaxt itirmək olmaz. Xüsusilə dağ kəndlərində və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsi də yaxın iki il ərzində başa çatmalıdır. İndi bir çox ucqar kəndlərdə bu layihə icra edilir. Kənd sakinləri də, uşaqlar da bundan çox razıdırlar. Bu proqram dövlət büdcəsinin xətti ilə icra edilir və ona görə yenə də deyirəm, bunun tamamlanması 2021-2022-ci ildə başa çatmalıdır".

Hazırda respublikamızın hər yerində məktəb binalarının tikintisi uğurla davam etdirilir. Onlardan bir neçəsini nümunə göstərmək olar.

Ardı 7-ci səh.



# Ölkəmizdə turizmin beynəlxalq səviyyədə inkişafı reallıqdır

Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilən turizm iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi böyük əhəmiyyət kəsb edir.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra kifayət qədər investisiya tələb edən turizmin tənəzzüldən çıxarılması və inkişafı üçün kompleks tədbirlər həyata keçirmişdir. Ulu Öndərin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində də uğurlu islahatların aparılmasına imkan yaratmışdır.

Ardı 5-ci səh.

# Zərdabda qısa vaxtda 130 tonadək pambıq yığılıb

Zərdab rayonunda pambıq yığımı sürətlə davam edir və qısa vaxtda 130 tonadək məhsul toplanıb.

Rayon dövlət aqrar inkişaf mərkəzindən AZƏRTAC-a bildirilib ki, cari mövsümdə 19 icra nümayəndəliyində 3070 hektar sahədə pambıq yetişdirilib. Hazırda bütün qüvvələr məhsulun tez və itkisiz yığılmasına səfərbər edilib. Hər gün sahələrə 300 nəfərdən çox işçi qüvvəsi çıxır. Əksər ərazilərdə, xüsusilə daha çox pambıq əkilən və bol məhsul yetişdirilən Çallı, Kəndəbil, Əlvənd, İsaqbağı və bir sıra digər ərazi icra nümayəndəliyində "ağ qızıl" toplanması daha sürətlə və mütəşəkkil davam etdirilir.

Cari mövsümdə sahələrin 2620 hektarında məhsul pambıqyığan maşınlarla yığılacaq. Bu məqsədlə "MKT İK" və "P-AQRO" MMC-lər tərəfindən 12 kombayn hazır vəziyyətə gətirilib. Gələn həftədən kombaynlar sahələrə çıxarılacaq.

Qeyd edək ki, mütəxəssislər cari mövsümdə tarlaların hər hektarından 28-30 sentner məhsul istehsal ediləcəyi qənaətindədirlər.



## 20 Sentyabr Neftçilər Günüdür





# Azərbaycan neft sənayesinin keçmişi və bu günü

Azərbaycanı dünyaya tanıdan "qara qızıl" iqtisadi güc və qüdrət rəmzidir. Artıq əsrlərdir ki, Azərbaycanın neft sahəsində qazandığı şan-şöhrət günbəgün daha da artır. Neftin hasil olunmasında əməyi olan zəhmətkeş neftçiləri də unutmaq olmaz. Ölkəmizdə 20 Sentyabrın Neftçilər Günü kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin neftçi əməyinə verdiyi ən yüksək qiymətdir.

XIX əsrdə Azərbaycanda inkişaf edən əsas sahələrdən biri və başlıcası neft sahəsi idi. Bu sahənin inkişafına kapital qoyuluşu 1859-cu ildə başlamışdır. Rus sənayeçilərindən Kokorev və Qubonin tərəfindən 1859-cu ildə Bakı yaxınlığındakı Suraxanı kəndində ilk dəfə neft emalı zavodu işə salınmışdır. Onu da qeyd edək ki, həmin dövrdə neftin bahalığı səbəbindən az qala zavod bağlanma təhlükəsi yaşamışdır. Həmin səbəbdən D.Y.Mendeleyevin məsləhəti ilə neftin limana borular vasitəsilə nəql edilməsinə başlanır ki, bu da neftin maya dəyərinin düşməsinə səbəb olur. 1864-cü ildə zavod ildə 60 min pud məhsul verir. Həmin il Balaxanı neft mədənlərində kəndlilərin icbari əməyi ləğv edilir. Atılmış bu addım neft istehsalında muzdlu əməyin tətbiqinə geniş yol açır.

XIX əsrin 60-cı illərindən başlayaraq Azərbaycanda neft sənayesi ən sürətli inkişaf mərhələsinə başlamışdır. Bu inkişafı göstərən amillər Rusiyada və dünyada neftdən sənaye miqyasında istifadə olunması, Azərbaycanda ucuz işçi qüvvəsinin çoxluğu, neft ehtiyatının bolluğu, neftin yüksək keyfiyyətli olması və Rusiyanın özündə neft yataqlarının aşkar edilməməsi idi.

1857-ci ildə rus alimi A.Z.Moris neftdən parafin alınması təşəbbüsünü irəli sürdü. Tiflis əczaçısı F.Vitte Pirallahı adasında bu məqsədlə xüsusi zavod inşa etdirdi. Parafin zavodu 1861-ci ilin avqustunda işə salınmışdır. Zavodda 150 nəfər fəhlə işləyirdi. Onların əksəriyyəti Abşeronun yerli əhalisi idi.

Azərbaycanda ilk milli ağ neft zavodu isə 1863-cü ildə azərbaycanlı iş adamı Cavad Məlikov tərəfindən inşa edilmişdir. Ümumiyyətlə, 1870-ci ilin əvvəlində Bakıda üç iri neft emalı zavodundan əlavə 44 orta və xırda neft emalı zavodu vardı ki, onlar da ildə 500 min puda yaxın kerosin istehsal edirdi.

Lakin Bakı neft sənayesinin tarixində əsaslı dönüş 1872-ci ildən iltizam sistemi ləğv edildikdən sonra başladı. İltizam sistemi XIX əsrin 60-70-ci illərində neft sənayesinin inkişafına bir növ mənfi təsir etmişdir. Duru yanacağa tələbatın artması hökuməti iltizam sistemini ləğv etməyə məcbur etdi və 1872-ci il fevralın 17-də həmin sistem ləğv olundu. Bundan sonra neft quyularının ayrı-ayrı sahibkarlara satılmasına icazə verildi və 1872-ci ilin dekabrında ilk dəfə neft yataqları hərrac vasitəsilə satışa çıxarıldı. Həmin hərraclarda Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov kimi sahibkarlar neftli torpaqların sahibi oldular.

1871-ci ildə Balaxanıda buruq üsulu ilə ilk neft quyusu qazıldı. 1873-cü ildə isə "Xələfi" adı ilə məşhur olan sahədəki quyu güclü fontan vurdu. Quyudan hər gün ən azı 100 pud neft alınırdı. Quyuların, xüsusilə fontanların sayının artması neftin qiymətinin kəskin ucuzlaşmasına gətirib çıxardı. 1873-cü ildə neftin qiyməti iltizam dövrü səviyyəsində bir pudu 45 qəpik idisə, "Xələfi" fontanından sonra 6 qəpiyə endi. 1873-cü ildən etibarən quyuların qazılmasında yeni üsuldan istifadə olunmağa başlanıldı. Yeni üsul quyuların qazılmasında ilk dəfə buxar mühərrikindən istifadə mexanizmi idi. Bu isə neft sənayesinin fabrik və zavod mərhələlərinə keçirilməsi idi. Nəticədə 1872-ci ildə 1,4 milyon pud neft çıxarıldığı halda, 1894-cü ildə hasilat 340 milyon puda, yəni əslində ABŞ-dakı səviyyəyə çatmışdı. 1901-ci ildə Bakı nefti hasilatına görə dünyada birinci yerə çıxdı.

Tarixə nəzər salsaq, görərik ki, Azərbaycan nefti həm keçmişdə, həm də sonralar xarici investorların diqqətini cəlb etmişdir. Bu səbəbdən bir çox xarici neft şirkətlərinin Azərbaycana investisiya qoyuluşları indiyəcən davam edir. Hələ 1870-ci illərdə ən böyük neft investorlarından olan Nobel qardaşları, Kokoryev, Qobonin, Benkendorf, Şibayev böyük həcmdə karbohidrogen ehtiyatlarına malik Azərbaycanın neft sektoruna investisiya yatırmışlar. Həmin dövr Nobel qardaşlarının sifarişi ilə İsveçdə hazırlanmış dünyanın ilk neft tankeri "Zoroastr" Bakı ilə Həştərxan arasında hərəkətə başladı. Bir ildən sonra yeni, daha böyük "Moisey" tankeri sifariş verildi. 1880-ci ildə "Nobel Qardaşları" şirkəti tərəfindən mədənlər arasında neft və sərnişin daşınması üçün ilk dar dəmir yolu xətti çəkildi. Nəticədə ən iri neft sənaye şirkətləri - "Nobel Qardaşları" şirkəti, "Xəzər-Qara Dəniz Cəmiyyəti" və sahibkar H.Z.Tağıyev özlərinin neftdaşıyan gəmi donanmalarını yaratdılar. Həmin illər neft sektorunda ən böyük şirkət "Nobel Qardaşları" idi. 1880-ci illər Bakıya Rotşildin simasında fransız kapitalı, 90-cı illərdə başda Vişau olmaqla ingilis kapitalı gəldi. O dövrdə neft hasilatı 600 min puda çatdı ki, bu da həmin illərdə neft hasilatı üzrə ən yüksək göstərici idi.

1891-ci ildə dörd yerli şirkətin "Bakı Standartı" adlandırılan birliyi meydana gəldi. Bu, Mantaşevin, Tağıyevin, Lianozovun və Budaqovun şirkətləri idi. Nobel qardaşları həmin vəziyyətdən istifadə edərək 1892-ci ildə "Yeddi böyük firma ittifaqı" adlı yeni birlik yaratdılar. Ümumiyyətlə, neft sənayesi böyük xərc tələb etdiyinə görə xarici kapital Azərbaycanda üstünlük təşkil edirdi.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra tez bir zamanda iqtisadiyyatı dirçəltmək istiqamətində zəruri addımlar atmağa başlamışdır. Bu istiqamətdə ilk hədəf neft sənayesini böhrandan çıxarmaq və inkişaf etdirmək idi. Həmin məqsədlə neft sənayesinə investisiya və yeni texnologiyalar cəlb etmək, sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə tapşırıldı. Danışıqlar üçün təcrübəli mütəxəssislər cəlb olundu. Bu qrupun fəaliyyətində İlham Əliyevin, Xoşbəxt Yusifzadənin və Natiq Əliyevin rolunu xüsusi qeyd etmək lazımdır.

Bu gün Azərbaycan neft sektorunda dünyada tanınan bir ölkəyə çevrilmişdir. Bu strategiyanı xalqımızın Ümummilli Lideri Heydər Əliyev hazırlamışdır. Heydər Əliyevin müəllifi olduğu strategiya 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə ölkəsinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, LUKoyl, Ekson, Delta, MakDermott, Yunokal, ARDNŞ, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Statoyl, Remko) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlamışdır. Bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı ilə məşhurdur. Müqavilənin imzalanmasından sonra Azərbaycana maraq daha da artdı. Artıq digər ölkələrin şirkətləri də Azərbaycana sərmayə qoymağa başladılar. 2001-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış sərəncamla hər il sentyabrın 20-nin ölkəmizdə Neftçilər Günü kimi qeyd olunması da bu tarixlə bağlıdır.

"Əsrin müqaviləsi"nin təkcə hazırlanması və bağlanmasını deyil, həm də həyata keçirilməsini olduqca ağır və çətin problemlər müşayiət edirdi. Bu işə mane olmaq istəyən qüvvələr həddindən artıq çox idi. Ancaq bütün bunlara baxmayaraq, müqavilə uğurla icra olundu.

1996-cı il iyunun 4-də isə Xəzərin "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Türkiyə, Böyük Britaniya, Norveç, Rusiya, Fransa və İranın neft şirkətləri müqavilə imzaladılar. Bu müqaviləyə əsasən, gəlirin 80 faizi Azərbaycana çatacaqdı. Bu zaman dərinliyi 6,5 min metr olan quyular qazıldı və nadir qaz-kondensat yatağı kəşf edildi. Qərb ekspertlərinin fikrincə, bundan sonra Azərbaycan həm də qaz ölkəsinə çevrildi. Ardınca dəqiq desək, 1996-cı il dekabrın 14-də Xəzərdə "Dan Ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, 1997-ci ildə isə "Talış Dəniz" və "Lənkəran Dəniz" yataqlarının birgə işlənməsi məqsədilə Fransa neft şirkətləri ilə Azərbaycan Neft Şirkəti arasında saziş bağlandı.

Ümummilli Lider Heydər Əliyevin qətiyyəti sayəsində çox böyük maneələrə baxmayaraq, 2002-ci ilin sentyabrında Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin və ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu. 3 il sonra - 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi və boru xəttinə ilk dəfə neft vuruldu. Elə həmin ilin oktyabrında kəmərin Gürcüstan hissəsi istifadəyə verildi. 2006-cı ildə isə Azərbaycan nefti Ceyhan limanına çatdı və yüklənmiş ilk tanker buradan yola salndı.

Heydər Əliyev zamanında aparılan bu uğurlu siyasət indi İlham Əliyev tərəfindən davam etdirilir. 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gətirdiyi gəlirlərin ildən-ilə artması Azərbaycanın sosial-iqtisadi inkişafına güclü təkan verdi. Ölkə iqtisadiyyatının inkişafında, əhalinin sosial rifahının yaxşılaşmasında neft-qaz ehtiyatları başlıca amilə çevrildi.

"Qara qızıl"ın çıxarılmasında neftçilərimizin əməyi danılmazdır. Ölkəmizdə qocaman neftçilərimizin sayı-hesabı yoxdur. Onlardan biri də Azərbaycanın neft sənayesində əvəzsiz xidmətləri olan Xoşbəxt Yusifzadədir. X.Yusifzadə 1987-ci ildə Moskvanın Yanar Qazıntıların Geologiyası və İşlənməsi İnstitutunda "Dəniz neft və qaz yataqlarında axtarış-kəşfiyyat işlərinin sürətlə aparılmasının prinsip və metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini almışdır. 2007-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü olan X.Yusifzadənin bilavasitə iştirakı və rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən artıq neft və qaz yatağı, o cümlədən dünyada məşhur olan "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilmiş və istismara verilmişdir. Onun 1988-ci ildən başlayaraq xarici şirkətlərlə birgə aparılmış bütün işlərdə, o cümlədən "Azəri-Çıraq-Günəşli" (dənizin dərin hissəsi) yataqlarının işlənməsində, "Əşrəfi" (1998-ci il), "Qarabağ" (1998-ci il), nəhəng "Şahdəniz" (1999-cu il), iri "Abşeron" (2011-ci il) kimi yataqların, eləcə də 2010-cu ildə ARDNŞ-nin öz gücü ilə açdığı "Ümid" yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur.

Daha bir əməkçi neft qəhrəmanı Qurban Abbasovdur. Neftçi Qurban açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarından biridir. Şelf-1 tipli yarımdalma üzən qazma qurğularının Xəzər dənizi şəraitində mənimsənilməsində onun xüsusi xidmətləri olmuşdur. Bu qurğular 200 metrlik dəniz dərinliyində işləyə bilmiş, Kaveroçkin adına (indiki "Çıraq" yatağı) yatağı kəşf etməyə və yeni dərin perspektivli strukturlarda kəşfiyyat işləri aparmağa imkan yaratmışdır.

Neftçi Qurban cəsarətli insan kimi dənizlə mübarizədə öz daxili "mən"ini qoruya bilmiş, neçə-neçə fırtınalar, qəzalar, uçqunlar görmüşdür. Onun haqqında danışılan əfsanələrdən biri də o idi ki, Qurban Abbasov Neft Daşlarında buruq ustası işləyən zaman soyuq payız günlərindən birində dənizə düşmüş çox qiymətli qazma baltasını çıxarmaq üçün heç kəsə imkan vermədən özü dənizə atılaraq həmin baltanı çıxarmışdır. Sonralar bu hadisə neftçilər arasında qəhrəmanlıq rəmzinə çevrilmişdir.

***Üzeyir HƏBİBBƏYLİ,***
***"SOCAR PETROLEUM" QSC-nin mətbuat katibi, filologiya üzrə fəlsəfə doktoru***

# "Əsrin müqaviləsi"ndən "Cənub qaz dəhlizi"nədək...

## Heydər Əliyevin əsasını qoyduğu və İlham Əliyevin qlobal layihələrlə inkişaf etdirdiyi neft-qaz strategiyası Azərbaycana yeni uğurlar qazandırır

*Əvvəli 1-ci səh.*

Yeni neft strategiyası Azərbaycanın qədim neft-qaz ölkəsi kimi şöhrətini özünə qaytardı, dövlətimizin uzunmüddətli, davamlı inkişafına zəmin yaratdı. Azərbaycanın dinamik inkişaf edən, güclü və nüfuzlu ölkəyə çevrilməsində müstəsna rol oynayan bu strateji kurs həm də dövlətin iqtisadi-siyasi qüdrətinin və beynəlxalq birliyə inteqrasiyasının, xalqımızın durmadan yüksələn sosial rifahının təminatçısı oldu. Ölkədə aparılan genişmiqyaslı quruculuq işləri, respublikanın beynəlxalq aləmdə qazandığı uğurlar həmin uzaqgörən konsepsiyanın təntənəsinə aydın misaldır.

"Əsrin müqaviləsi" çərçivəsində artıq 24 ildir neft hasil olunur. Yəni 1997-ci ilin noyabrında "Çıraq" platformasından ilkin neft alınıb. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin yanvar-avqust aylarında AÇG-dən 3 milyard 488,5 milyon dollar gəlir əldə edib. Qeyd edək ki, 2001-ci ildən etibarən ARDNF-nin AÇG-dən gəliri 152 milyard 893 milyon dollar olub. 2020-ci ildə layihə üzrə gəlir 3 milyard 522,7 milyon dollar təşkil edib.

Bu yataqlardan neftlə bərabər səmt qazı da hasil edilir ki, onun da bir hissəsi təzyiqi saxlamaq üçün yenidən laylara vurulur. Mavi yanacağın böyük hissəsi isə təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilir, yəni Səngəçaldan SOCAR-ın "Azəriqaz" sisteminə ötürülür.

"Əsrin müqaviləsi"nin imzalandığı vaxtdan bəri Azərbaycanda ən müasir və zəngin neft-qaz infrastrukturu da yaradılıb. Çoxsaylı tikinti-quraşdırma sahələri, terminal və ixrac kəmərləri, digər obyektlər "Əsrin müqavilə"sinin və ondan sonrakı sazişlərin reallığa çevrilməsində mühüm rol oynayıb. Bu infrastruktur hələ uzun illər Azərbaycana xidmət edəcək. Mövcud layihələr bitəndən sonra isə həmin obyektlərin hamısı mülkiyyət kimi dövlətimizə, sərvət kimi xalqımıza qalacaq.

Xatırladaq ki, Xəzərin ölkəmizə məxsus sektorunda, sahildən təxminən 120 kilometr şərqdə yerləşən AÇG dünyanın ən zəngin neft mənbələrindəndir. Prezident İlham Əliyev bu yataqların ölkəmizin əsas gəlir mənbəyi olduğunu dəfələrlə vurğulayıb.

1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər. Hazırda mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər. 2017-ci il sentyabrın 14-də AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2050-ci ilin əvvəlinədək davam edəcək və qarşıdakı illərdə AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

Avropanın enerji xəritəsini dəyişən "Cənub qaz dəhlizi"nin, "Yeni əsrin müqaviləsi"nin və neçə-neçə digər layihənin gerçəkləşməsi Azərbaycanın neft-qaz strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam və getdikcə inkişaf etdirildiyinin aydın nümunəsidir. İlham Əliyev bu qlobal layihələrlə Azərbaycanın neft-qaz tarixində yeni mərhələnin əsasını qoydu. Bu, eyni zamanda ölkənin iqtisadi gücünün çoxalması, yeni investisiya qoyuluşları, ümumi daxili məhsulun artması, yeni iş yerlərinin açılması və əhalinin sosial rifahının daha da yaxşılaşdırılması deməkdir.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 27 il tarix üçün, əlbəttə, böyük zaman kəsiyi deyil. Həmin illər ərzində Azərbaycanın imza atdığı böyük uğurlar sırasında nəhəng neft-qaz və ixrac layihələri də dayanır. Bu dövrdə Bakıdan 55 kilometr cənubda dünyanın ən böyük neft-qaz terminallarından biri - Səngəçal terminalı tikilib. Bakıdan Supsaya uzanan Qərb İxrac Boru Kəməri, üç ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri çəkilib. Azərbaycandan Avropayadək 3500 kilometr məsafə qət edən, Xəzərin sahilindən başlayıb Adriatik dənizinin altından keçən və İtaliya torpağında quruya çıxan "Cənub qaz dəhlizi" yaradılıb.

Sentyabrın 20-si həm də qurudakı mədənlərdə, dənizdəki estakada və meydançalarda, özül və platformalarda çalışan fədakar insanların bayramıdır. Həmin gün hər il ölkəmizdə neftçilərin peşə bayramı qeyd edilir. Azərbaycanda neftçi bütün zamanlarda hörmətli peşə sahibi kimi dəyərləndirilib.

Azərbaycan neftçisi "Azəri-Çıraq-Günəşli" platformalarına qədər uzun və şərəfli yol keçib. Axı Azərbaycan dünya neft sənayesinin beşiyidir. Bakıda sənaye üsulu ilə ilk neft quyusunun qazılmasından iki əsrə yaxın vaxt keçir. Hələ neftin kustar üsulla çıxarıldığı zamanlarda belə Azərbaycan neftçisi öz hünəri ilə tanınıb.

Bu gün təbiət ona daha bir şans verib, ehtiyatları onilliklərə hesablanmış təbii qaz da hasil edir. "Şahdəniz" bütün dünyaya səs salıb. Sırada isə növbəti neft-qaz yataqlarının kəşfi və işlənməsi dayanır.

Bununla yanaşı, dövlətimiz köhnə sahələrdə də hasilatın sabit saxlanılmasını, onilliklərdir istismar edilən karbohidrogen yataqlarının imkanlarından səmərəli istifadə olunmasını qarşıya məqsəd qoyub. Neftçilərimiz bu vəzifənin də öhdəsindən layiqincə gəlirlər.

Prezident İlham Əliyev neftin və qazın ölkə iqtisadiyyatının əsas potensialı olduğunu vurğulayır. Azərbaycan neftçisi də bu potensialı üzə çıxararaq gücümüzü, sərvətimizi artırır. Dövlət başçısı bu çətin və şərəfli peşə sahiblərinin əməyini həmişə yüksək qiymətləndirir: "Azərbaycan neftçilərinin əməyini qeyd etmək istərdim. Azərbaycanda neftçi peşəsi həmişə böyük hörmətə malik olub, bu gün də bu, belədir. Azərbaycan neftçiləri ölkəmizin uğurlu inkişafı üçün çox böyük işlər görürlər, qəhrəmanlıq göstərirlər".

***Flora SADIQLI, "Azərbaycan"***

# Uğurlu islahatlar ədalət mühakiməsinin səmərəliliyini artırır



**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində doğma torpaqlarımızı erməni işğalından azad etdik.**

Prezident İlham Əliyevin fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə, onun iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə yönələrək bu möhtəşəm qələbəmizi şərtləndirdi.

Biz artıq ərazi bütövlüyümüzün bərpa olunması ilə böyük quruculuq mərhələsinə qədəm qoymuşuq. Bu istiqamətdə çox böyük əhəmiyyətli işlər görülüb və işğaldan azad olunan ərazilərimiz yenidən dirçəlir. Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması prioritet olmaqla yanaşı, ölkəmizdə bütün sahələrin inkişaf etdirilməsi dövlətimizin diqqəti mərkəzindədir.

Dövlət başçısının müəyyən etdiyi inkişaf strategiyasına əsasən, digər sahələrdə olduğu kimi, ədliyyə və məhkəmə sisteminin inkişafı üçün də ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olmaqla bu sahədə islahatların yeni mərhələdə davamına rəvac vermişdir. Artıq fərmanın icrası ilə bağlı kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görülür.

Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsinə xüsusi əhəmiyyət verilmiş, bu sahədə mütərəqqi qanunvericilik bazası yaradılmış, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı - Məhkəmə-Hüquq Şurası təsis edilmiş, ədliyyə naziri Fikrət Məmmədov bu qurumun rəhbəri təyin olunmuş, ədliyyə sahəsində müasir tələblərə cavab verən islahatlar həyata keçirilmişdir.

Məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi məqsədilə qanunvericiliyə 50-dək dəyişiklik edilmiş, Şuranın səlahiyyətləri ilbəil genişləndirilmiş, o cümlədən hakimlərin müstəqilliyinin təmini və fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması şuraya həvalə edilmiş, hakimlərin təyinatında, səlahiyyətinə xitam verilməsində şuranın rolu artırılmışdır.

Ədliyyə orqanlarının sağlam mənəviyyata, yüksək hazırlığa və peşəkarlığa malik işçilərlə möhkəmləndirmək üzrə məqsədyönlü tədbirlər görülür, açıq müsabiqələr əsasında test üsulu ilə şəffaf seçim aparılır. Ədliyyə Akademiyasında peşə fəaliyyətinə buraxılış institutu tətbiq olunaraq ilk dəfə ədliyyə orqanları işçisi, prokuror və müstəntiq vəzifələrinə, habelə vəkilliyə və mediatorluğa namizədlərin icbari təlimi həyata keçirilir. Ədliyyə xidmətlərinin səviyyəsinin yüksəldilərək müasir tələblərə uyğun qurulması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə yeni iş metodları, elm və texnikanın müasir nailiyyətləri tətbiq edilir.

Yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə mütərəqqi qaydalar hazırlanmış, müstəqil qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Çoxmərhələli imtahanlarda şəffaflıq və obyektivlik, o cümlədən bütün prosesin - sualların seçilməsi, çoxaldılaraq paylanması, nəticələrin yoxlanması və elan edilməsi, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, KİV nümayəndələrinin qarşısında keçirilməsi və onlayn rejimdə canlı yayımlanması, nüfuzlu beynəlxalq təsisatların da diqqətini cəlb etmişdir.

Bu prosesi bilavasitə izləyən Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ), habelə Avropa İttifaqı Azərbaycanda hakimliyə namizədlərin seçimini örnək kimi qiymətləndirmiş və digər dövlətlərə də tövsiyə etmişdir. Ədliyyə sahəsində həyata keçirilən islahatların davam etdirilməsini, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2018-ci ildə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün" Dövlət Proqramı qəbul edilmişdir.

Dövlət başçısı tərəfindən vətəndaşların rifahının yüksəldilməsinə xidmət edən sosialyönümlü tədbirlərin tərkib hissəsi olaraq hakimlərin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmış, habelə məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı yeni layihələr hazırlanmışdır. Yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi qaydaları təkmilləşdirilmiş, bu prosesdə şəffaflıq, çeviklik artırılmışdır. Hakimlərin Seçki Komitəsi tərəfindən müsabiqələr xüsusi karantin rejimi qaydalarına riayət olunmaqla davam etdirilmiş, hakimliyə namizədlərin keyfiyyətli distant təlimi təşkil olunmuşdur. Korrupsiyaya şərait yaradan halların qarşısının alınması və obyektivliyin təmin olunması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmələrdə monitorinqlər aparılaraq, yol verilən bir çox nöqsanlar aradan qaldırılmışdır. Fəaliyyətdə şəffaflığın təmin edilməsi üçün məhkəmə qərarlarının dərci üzrə xüsusi proqram təminatı hazırlanmışdır.

Eyni zamanda ölkə üzrə məhkəmələrin "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi və funksionallığının artırılması ilə bağlı Dünya Bankı ilə birgə əməkdaşlıqda əməli tədbirlər görülmüşdür. Dövlət başçısının Fərmanı ilə sistemin Əsasnaməsi təsdiq olunaraq fəaliyyətinin hüquqi əsasları müəyyən edilmiş, e-məhkəmənin digər qurumların informasiya sistemləri ilə qarşılıqlı inteqrasiyası təmin olunmuşdur.

Məhkəmə xidmətlərinə əlçatanlığın artırılması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin mobil versiyası da mövcuddur. "Mobil məhkəmə" tətbiqi üzərindən istifadəçilər "Şəxsi kabineti" vasitəsilə sistemin açdığı bütün imkanlardan yerləşdiyi yerdən asılı olmayaraq öz mobil cihazı vasitəsilə istifadə edə bilərlər. Hazırda "Mobil məhkəmə" vasitəsilə birinci instansiya məhkəmələri tərəfindən qəbul olunan qərarlardan apellyasiya şikayətinin verilməsi imkanının yaradılması üzrə tədbirlər görülür.

Qlobal pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi şəraitində məhkəmələrdə işlərə baxılmasının məhdudlaşdırıldığı nəzərə alınaraq məhkəmə proseslərinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə distant aparılması üçün xüsusi proqram modulu hazırlanmış və bir çox işlərə videobağlantı ilə baxılması təmin edilmişdir. Operativ olaraq qanunvericiliyə dəyişikliklərin edilməsi cinayət işlərinə də bu formatda baxılmasını mümkün etmişdir. İlk növbədə, buna dövlət başçısının tapşırığı ilə məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən ardıcıl tədbirlər imkan vermişdir. Bu sahədə Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində "Elektron məhkəmə" informasiya sistemi və digər İKT ilə təchiz olunaraq, yüksək texnoloji (hi-tech) məhkəmələrə çevrilmişlər.

Ölkəmizdə arbitraj institutunun təşviqi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı bu sahədə bir sıra dövlətlərin, o cümlədən Almaniya, Avstriya, Danimarka, Norveç və Gürcüstanın təcrübələri, habelə UNCİTRAL Model Arbitraj Qanunu nəzərdən keçirilmiş və "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa və Mülki Prosessual Məcəlləyə dəyişikliklərlə bağlı yeni layihələr hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, işin yeni çağırışlara uyğun təkmilləşdirilməsi üzrə ölkənin bütün ərazisində hakim korpusunun peşəkar hüquqşünaslarla möhkəmləndirilməsi, korrupsiya və digər neqativ hallara qarşı mübarizənin gücləndirilməsi əsas prioritetlərdəndir.

Azərbaycanda cəza siyasətinin humanistləşdirilməsinə və cinayətlərin dekriminallaşdırılmasına dair qanunvericilikdə bir sıra yeniliklər təsbit olunub. Humanizm ideyalarına daim sadiq olan Azərbaycan Prezidenti tərəfindən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən tədbirlərin son illər davamlı xarakter alması xüsusi qeyd olunmalıdır. Eyni zamanda azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidməti yaradılmış və qısa müddətdə elektron nəzarət vasitələri (elektron qolbaqlar) tətbiq olunmaqla həmin cəzaların icrasına effektiv nəzarətin həyata keçirilməsi öz səmərəsini vermişdir.

Dövlətimizin humanizm siyasətinin təzahürü olaraq məhkumları cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi davamlı xarakter almış, bu məqsədlə vətəndaş cəmiyyəti nümayəndələrinin təmsil olunduğu Penitensiar xidmətdə fəaliyyət göstərən xüsusi komissiya tərəfindən mütəmadi olaraq, o cümlədən xüsusi karantin rejimi şəraitində iclaslar videokonfrans formatında keçirilmişdir. Ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş humanizm ənənələrinə daim sadiqlik nümayiş etdirilir, əfvetmə və amnistiya institutları işlək mexanizmlər əsasında davamlı olaraq geniş tətbiq olunur.

Humanizm ideyalarını həyata keçirmək, mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun da başlıca məramlarından biridir. Təsadüfi deyil ki, Mehriban xanımın Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmiş və on minlərlə insanı əhatə edən amnistiya aktları həyata keçirilmişdir.

Ədliyyənin müxtəlif sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə daim xüsusi diqqət yetirilir. Hazırda ədliyyə sahəsində əhaliyə 31 elektron xidmət göstərilir. Pandemiya İKT-lərin geniş tətbiqini və fəaliyyətin onlayn rejimə keçməsini stimullaşdırmış və bu baxımdan ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı elektron xidmətlərin tətbiqi karantin dövründə vətəndaşların bu orqanlara əlçatanlığını xeyli asanlaşdırmışdır.

Tətbiq olunan innovasiyalar, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar "elektron notariat çantası" hazırlanaraq notariusların istifadəsinə verilmişdir ki, elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan həmin çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

Maraqlı yeniliklərdən biri də "Elektron ədliyyə köşkü"dür. Sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılan bu "köşk" vətəndaşlara video əlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin məsafədən göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verir.

Həmçinin Azərbaycanın məhsulu olan "Mobil notariat" tətbiqi son zamanlar vətəndaşların daha çox bəhrələndiyi innovasiyalardan biridir. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi təmin edilir. Pandemiya dövründə bu tətbiqin funksionallığı genişləndirilmişdir. Artıq tətbiq üzərindən istifadəçilər notariat ofisinə getmədən notariusla video əlaqə yaradaraq nəqliyyat vasitələrinin idarə olunması və ona sərəncam verilməsi, habelə hüquqi yardımla bağlı vəkilə verilən və bəzi digər etibarnamələrin elektron rəsmiləşdirilməsi imkanına malikdirlər.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində rəqəmsal innovasiyalar tətbiq olunmaqla yüksək texnoloji - "hi-tech" məhkəmə bina və kompleksləri inşa olunaraq istifadəyə verilir.

Ədliyyə qurumu üçün yeni, müasir bina və komplekslərin tikilərək istifadəyə verilməsi dövlət başçısının diqqəti və qayğısı sayəsində məhkəmə-hüquq sistemində görülən ardıcıl tədbirlərin tərkib hissəsidir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir innovasiyalar və digər avadanlıqlarla təchiz olunmaqla yaradılan Sumqayıt Məhkəmə Kompleksinin açılışını edib. Binada quraşdırılmış müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır. Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması üçün "Femida" sistemi quraşdırılıb ki, bununla proseslərin daha dəqiq və sürətlə protokollaşdırılması, audio-video yazılışı aparılır, məhkəmə sənədlərinin tərtibi asanlaşır, işlərə məsafədən videokonfrans formatında baxılması mümkün olur. Cinayət işləri üzrə məhkəmə zallarında, həmçinin təqsirləndirilən şəxslər üçün xüsusi yer ayrılıb və burada monitor, mikrofon və vəkillə əlaqə saxlamaq üçün birbaşa telefon quraşdırılıb.

Ədliyyə Nazirliyində aparılan islahatlar çərçivəsində rəsmi internet saytı yaradılıb ki, bu da 3 dildə (Azərbaycan, rus və ingilis dilləri) olmaqla "Qarabağ Azərbaycandır!" elektron məlumat platformasıdır. Platformanın yaradılmasında məqsəd Ermənistanın işğalçılıq siyasəti, Azərbaycanın dinc əhalisinə qarşı törətdikləri insanlıq əleyhinə, o cümlədən hər bir insanın təhlükəsiz yaşamaq hüququnun pozulmasına yönələn müharibə cinayətləri, terroru barədə həqiqətlərin, insan hüquqlarına dair beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması haqqında məlumatların geniş ictimaiyyətə çatdırılmasıdır.

Daim yenilənən platformada ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri, dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial şəbəkələrdə müraciətləri və mediada çıxışları, işğaldan azad edilən ərazilərimiz barədə xəbərlər, bayrağımızın ucaldılması mərasimləri, Qarabağ və ətraf yeddi rayonun tarixi, mədəni və dini abidələrinə dair fotoqalereya, münaqişəyə dair tarixi sənədlər: Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri və digər materiallar yerləşdirilib.

İşğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılması ilə bağlı genişmiqyaslı quruculuq işləri aparılır. Həmin ərazilərdə ədliyyə və məhkəmə fəaliyyətinin təşkili məsələləri də ən ümdə vəzifələrdəndir. Bununla əlaqədar dövlət başçısının işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkilinə dair tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi üzrə kompleks tədbirlər, o cümlədən ədliyyə nazirliyinin rəhbərliyi ilə qərargah yaradılmış, zəruri təşkilati işlər görülür. Həmin ərazilərdə fəaliyyətin təşkili və ədliyyə orqanlarının işinin əlaqələndirilməsi məqsədilə Qarabağ regional ədliyyə idarəsi yaradılmışdır.

*Ümumilikdə isə, Prezident İlham Əliyevin də vurğuladığı kimi, islahatlar davamlı mahiyyət daşımalı, konkret məqsədə xidmət etməli, ən əsası isə bu islahatların mərkəzində vətəndaş məmnunluğu dayanmalıdır. Mövcud siyasi iradə və ortaya qoyulan mövqe bu islahatların qısa zamanda daha uğurlu nəticələr verəcəyini düşünməyə ciddi əsaslar yaradır.*

***Şaiq MİRZƏYEV,***
***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri üzrə fəlsəfə doktoru***

# YAP Gənclər Birliyi ölkə gənclərinin bir çətir altında birləşməsini hədəfləyir



Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı ilə Şəki şəhərində gənclərlə görüş keçirilib.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək birlik tərəfindən müxtəlif layihələrin və tədbirlərin təşkil olunması ilə yanaşı, bölgələrdə gənclərlə də qarşılıqlı diskussiya formatında görüşlər keçirildiyini bildirib: "Bu görüşlərin əsas məqsədi bölgələrimizdə olan gənclərimizin fikirlərini öyrənmək, onların təşəbbüslərinə dəstək olmaqdır. Çünki YAP Gənclər Birliyi ölkəmizdə gənclər sahəsində ən böyük təşkilat olaraq onların cəmiyyətdə fəal və təşəbbüskar rolunu dəstəkləyir. Xüsusilə, Yeni Azərbaycan Partiyasının rəhbərliyinin yeni tərkibdə formalaşdırılmış Gənclər Birliyindən əsas gözləntisi odur ki, Azərbaycan gənclərinin qarşılıqlı əməkdaşlıq çərçivəsində bir çətir altında birləşməsi təmin edilsin".

B.İslamov qeyd edib ki, gənclərin potensialından ölkəmizin inkişafı naminə bəhrələnmək üçün təkcə intellektual imkanlar, bilik və bacarıqlar kifayət deyil. Eyni zamanda həmin potensialın sərgilənə bilməsi üçün gənclərə münbit şəraitin yaradılması, onlara meydan verilməsi çox vacib məsələdir. Bu gün Azərbaycanda YAP-ın sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti məhz gənclərimizin bu yanaşma əsasında inkişafını özündə ehtiva edir.

Görüşdə gəncləri maraqlandıran çoxsaylı suallar da cavablandırılıb.

# Saxta erməni iddiaları

## XX əsrin əvvəllərində indiki Ermənistanda 2310 coğrafi addan 2000-ə qədəri türkmənşəli olub

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Kəlbəcər rayonuna səfəri zamanı bir daha dövlət başçısı bu məsələyə toxunaraq vaxtilə indiki Ermənistanda mövcud olmuş toponimlərin ermənilər tərəfindən saxtalaşdırılmasına diqqət çəkərək xalqımıza məxsus yer-yurd adlarının özlərinə qaytarılması, bu istiqamətdə təbliğatı gücləndirməyin, həqiqətin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğuladı.

Tarixi sənədlərə nəzər salsaq görərik ki, ermənilər İrəvanın yaxınlığındakı Molla Dursun, Kərpicli, Qurbağalı, Yeni Bəyazit, Qaraqola, Qızıldağ, Ahdağ və s. toponimlərimizi də dəyişdirib. Bunlar Azərbaycan Prezidentinin sərəncamı ilə nəşr olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsində də yer alan toponimlərdir.

Qərbi Azərbaycanda adı ermənilər tərəfindən dəyişdirilən yurdlarımız yüzlərlədir. Ermənistanda bir vaxtlar Barana tayfasının adı ilə böyük bir rayon mövcud olub. Sonra ermənilər onun adını dəyişdirərək Noyemberyana çeviriblər. Türkmənşəli Barana o vaxt Gəncə quberniyasının Qazax qəzasının nəzdində olub. Ermənilər bu rayonun adını saxtalaşdırmaqla əslində özlərini ifşa ediblər. Çünki bunun heç bir əsası yoxdur. Barana adını yaddaşlardan silmək onlara nəsib olmayıb. Əskipara kəndinin də adı dəyişdirilərək əvvəlcə saxtakarcasına Sarxan, sonra isə Voskipar qoyulub.

Bu cür çirkin siyasətlə Aşağı Körpülü kəndinin adı Axtanaq edilib. Rayonun Çalakənd toponimi erməniləşdirilərək Mikçnazor, God Şavar Şavan, Qalaça Bertavan, türk kökənli Lənbəli isə Baqrataşenə çevrilib. Baranının ikiaddımlığındakı Allahverdi də taleyi gətirməyən türkmənşəli toponimlərdəndir. Ermənilər onun da "adına əl gəzdirib" - Tumanyan adlandırıblar.

Məşhur Göyçə mahalında da həm sovet dövründə, həm də son illər addəyişmə əməliyyatı, yəni erməni saxtakarlığı davam etdirilib. Azərbaycan tarixində misilsiz yeri olan Göyçə mahalı Göyçəgölün sahilləri boyu geniş bir ərazini əhatə edən qədim yurdlarımızdandır. Bu ərazi Rusiya çarlığına müharibə yolu ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti dövründə Göyçə mahalı süni şəkildə beş inzibati rayona bölünüb: Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıq, Kəvər və Yelenovka.

1920-ci ildən demokratik respublikamızı işğal edən sovet-bolşevik imperiyası Azərbaycan ərazisi olan Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican ərazisini qanunsuz şəkildə ermənilərə verib. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda Göyçə mahalı tarixi Azərbaycanın tərkibində olub.



***1899-cu ildə Göyçə mahalının xəritəsi. Xəritə qədim türk toponimləri göstərilməklə, çar Rusiyası məmurları tərəfindən tərtib edilmişdir.***

XVII əsrdən XIX əsrin əvvəllərinə kimi indiki Ermənistan ərazisi əhalisinin çoxunu Qafqaz müsəlmanları (azərbaycanlılar) təşkil edib. Cəfər Qiyasi və İbrahim Bozyelin "Armenian acts of cultural terrorism" kitabında göstərilir ki, ermənilərin özləri keçən əsrin ortalarına kimi təsdiq edirdilər ki, onlar indiki Ermənistan ərazisinə köçürülmüşlər. Əvvəllər burada etnik xalq kimi azərbaycanlılar yaşayıblar.

Təkcə XX əsrin əvvəllərində indiki Ermənistanda 2310 coğrafi addan 2000-ə qədəri türkmənşəli olub. Ermənistanda türkmənşəli toponimlərin dəyişdirilməsi dövrünü belə bölmək olar: 1918-1920-1930-1960-1980 və 1991-ci ildən sonra dəyişdirilənlər.

İlk addəyişdirmə (oxu: saxtakarlıqla erməniləşdirmə) 1801-ci ildə baş verib. Addəyişmənin birinci dövründə türkmənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilib. Bu da ərazinin çar Rusiyası tərəfindən işğalı və ora milliyyətcə rusların kütləvi şəkildə köçürülməsi ilə bağlı olub. İlk dəfə Cəlaloğlu rayonundakı (indi Stepanovan adlandırılır) Qaraməhəmməd kəndinin adı dəyişdirilərək Aleksandrovka qoyulub.

Tariximizin 1918-1920-ci illərə aid səhifələrində xalqımızın başına ermənilər tərəfindən gətirilən müsibətlər, əslində, soyqırımıdır. Belə ki, Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, indiki Ermənistanda şaumyanların, lalayanların başçılığı ilə minlərlə azərbaycanlı qətlə yetirilib. Onlar xalqımıza işgəncə verməklə yanaşı, qədim tarixi, dini, mədəniyyət abidələrimizi, hətta yaşayış binalarını yandırmaqla və yenidən addəyişmə əməliyyatını davam etdirməklə mənəvi soyqırımını da davam etdiriblər. 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində dəyişdirilən bir qisim türkmənşəli adlar bunlardır: Molla Dursun - Şaumyan (Eçmiədzin), Yuxarı Ağdam - Qanzakar (İcevan) Hamamlı - Burastan (Artaşat) və s.

SSRİ dövründə toponimlərin dəyişdirilməsi prosesi nəticəsində təkcə 1924-1930-cu illər ərzində Ermənistanda 80 toponim dəyişdirilib. Onların dəyişdirilməsinə səbəb kimi isə 3 yanvar 1935-ci il tarixdə Ermənistan SSR-in rəsmi qərarı əsas göstərilib. Əsl səbəb isə gizlədilib. Bu gün hər kəsə aydındır ki, Ermənistandakı Türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türkmənşəli olmasıdır. Bu da indiki Ermənistanda etnik əhalinin o dövrlərdə azərbaycanlılar olduğunu sübut edən əsas dəlildir.

Ermənistanda toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra (1946-1950) daha da sürətlənib. Buna əsas səbəb 1946-1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçürülən ermənilərin sayının artması idi. Bu illər ərzində təqribən min nəfər erməni Qərbi Azərbaycana köçürülüb.

Toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi çəkildə deportasiyası idi. SSRİ Nazirlər Şurasının 10 mart 1948-ci il tarixdə təsdiq etdiyi 745 nömrəli qərarına əsasən, azərbaycanlıların Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ərazisinə köçürülməsi başlanıb. Həmin bədnam qərara əsasən, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlı öz tarixi ərazilərindən - indiki Ermənistandan köçürülüb.

Addəyişmə 1935-ci ildə müvəqqəti olaraq təxirə salınıb. Lakin 1935-ci il yanvarın 3-dən buna ermənilər yenidən başlayıb və Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyəti ilk fərmanı imzalayıb. Həmin fərmanla 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırımı qurbanı olub. Məsələn, Qızıl kilsəni Karmiravan (Qukasyan), Böyük kəpənək Musaelyana (Axuryan), Künən Getaşenə (İcevan), Boğaz kəsən Dzorakana (Ani), İtquan Gülüstana (Əzizbəyov) çevrilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Görkəmli alim Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini dünyada layiqincə təmsil edib

## Sentyabrın 19-u şərqşünas-alim Aida İmanquliyevanın xatirə günüdür

Görkəmli şərqşünas-alim, istedadlı pedaqoq, incə qəlbə malik insan, gözəl övlad və həyat yoldaşı, fədakar ana... Qısa, lakin mənalı ömür sürmüş Aida İmanquliyeva yaddaşlarda belə qalıb.



AZƏRTAC Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın xatirə günündə onun həyat yolunun və elmi fəaliyyətinin bəzi məqamlarına nəzər salır.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək yüksəlib.

1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın (“Mixail Nüaymə və “Qələmlər birliyi”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatı korifeyləri”) və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva, həmçinin Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları” ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Bu barədə danışarkən mərhum akademik Vasim Məmmədəliyevin sözləri yada düşür: “Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır. ... Məhz Aida xanımın rəhbərliyi dövründə, onun təşkilatçılığı sayəsində Şərqşünaslıq İnstitutunun coğrafi hüdudları çox genişləndi, beynəlxalq əlaqələri gündən-günə artdı. Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi”.

Sankt-Peterburq Universitetinin professoru Olqa Frolovanın Aida xanımla bağlı xatirələrindən: “Mən onunla ilk dəfə Tiflisdə beynəlxalq elmi konfransda görüşdüm. Tədbirə müxtəlif ölkələrdən xeyli alim gəlmişdi. Aida xanımın gözəlliyinə ilk baxışda heyran oldum. Sonra biz digər şəhərlərdə keçirilən tədbirlərdə görüşdük. Bütün ərəb dünyası alimləri professor Aida İmanquliyevanın əsərlərini oxuyur və onu ehtiramla yad edirlər. Onlar məhz bu əsərlərdən öz yaradıcılıqları, Afrika, Asiya və demək lazımdır ki, dünyanın bütün ölkələrinin yazıçılarını öyrənmək, başa düşmək üçün güc alırlar”.

Aida xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən şərqşünas alimlər sırasında Rusiya Elmlər Akademiyasının akademiki Aleksandr Kudelin, Sankt-Peterburq Universitetinin professoru Anna Dolinina, keçmiş SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun professorları İsaak Filştinski, Valeriya Kirpiçenko, İrina Bilık və başqalarının adlarını çəkmək olar.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrlar hazırlanmasına da böyük diqqət yetirirdi. Rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Geniş elmi fəaliyyəti ilə yanaşı, Aida xanımın gözəl, nümunəvi ailəsi olub və o, cəmiyyət üçün ləyaqətli övladlar böyüdüb. Həyatını elmə həsr edən böyük qızı Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı - Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiridir. Milyonların məhəbbətini qazanmış Birinci vitse-prezident Mehriban Əliyevaya məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti anası - nəcib, istedadlı, məğrur və son dərəcə gözəl qadın olan Aida İmanquliyeva aşılayıb. Mehriban xanım deyir: “Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Onun yoxluğunu hər zaman hiss edirəm”.

Onu yaxından tanıyanlar deyirdilər ki, Aida xanım mehriban, əliaçıq, həddindən artıq səxavətli qadın idi. Kasıb tələbələrin cibinə pul qoyardı. Diplom işlərində kağız alınmasına, çap edilməsinə yardım edərdi. Hətta o zaman qıt olan dərmanları tapıb gətirməklə neçə-neçə insanı həyata qaytarmışdı. Özü də bunların hamısını təmənnasız edərdi.

Aida xanımın xatirəsi ürəklərdə daim yaşayır. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır.

# Müdafiə Nazirliyinin təşkilatçılığı ilə şəhid zabitin xatirəsinə tikilən bulağın açılışı olub

Xəzər rayonunun Binə qəsəbəsində şəhid leytenant Məhəmməd Zamanlının xatirəsinə tikilən bulağın açılışı olub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə Nazirliyi rəsmilərinin, Xəzər Rayon İcra Hakimiyyətinin, şəhidin ailə üzvlərinin, döyüşçü yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də işğal altında olan tarixi torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət himni ifa olunub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov şəhidin qısa, lakin hər bir gənc üçün örnək olan həyat və döyüş yolu barədə ətraflı məlumat verib. Digər çıxış edənlər Məhəmmədin Vətən müharibəsinin başladığı ilk gündən komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə hərbi əməliyyatlarda fəal iştirak etdiyini, şəxsi mərdlik və igidlik nümunələri göstərdiyini qeyd ediblər. Şəhidin yaxınlarına bir daha başsağlığı verib, səbir diləyiblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin vətənpərvərlik mövzusunda ifaları tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

# Şuşalıların doğma şəhərlərinə növbəti səfəri təşkil olunub









Sentyabrın 18-də şuşalıların işğaldan azad olunmuş dədə-baba yurdlarına növbəti səfəri təşkil edilib.




Şuşalılar 30 ilə yaxındır Şuşaya gəlmək həsrəti ilə yaşayırdılar. 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən Şuşa şəhərini işğaldan azad edilməsi ilə bu həsrətə son qoyuldu. Doğma şəhərin sakinləri Şuşanın tezliklə dirçəlməsinin, yenidən qurulmasının şahidi olacaqlar.

Şuşa sakinləri Cıdır düzü, Qala divarları, Yuxarı və Aşağı Gövhər ağa məscidlərini, Şuşanın mərkəzi meydanında Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəllərini ziyarət ediblər.

Sonra şuşalılar ilk dəfə Şuşada keçirilən Üzeyir bəy Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsertə baxıblar.

AZƏRTAC

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının iştirakı ilə tədbir keçirilib

Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin kursantlarının iştirakı ilə tədbir keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri və dövlət qulluqçuları, Psixologiya Elmi-Tədqiqat İnstitutunun, Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşları müxtəlif mövzularda mühazirələr oxuyublar.

Sonda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

# Rusiya Xəzər flotiliyasının iki hərbi gəmisi Bakıya gəlib

Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının “Astraxan” və “Anatoliy Qujvin” hərbi gəmiləri qeyri-rəsmi dostluq səfəri ilə sentyabrın 18-də Bakıya gəliblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində gəmi heyətlərinin Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri komandanlığı tərəfindən qəbulu, eyni zamanda, iki ölkənin hərbi donanmaları arasında hərbi əməkdaşlığın müzakirə edilməsi nəzərdə tutulub.

Bundan başqa, mədəni və tarixi abidələrlə tanışlıq üçün gəmi heyətlərinin Bakı şəhərində gəzintisi, o cümlədən voleybol üzrə yoldaşlıq görüşünün keçirilməsi planlaşdırılır. Səfər sentyabrın 20-dək davam edəcək.

# Azərbaycan və Rusiya hərbi dənizçilərinin görüşü keçirilib

Dostluq səfəri ilə ölkəmizdə olan Rusiya Federasiyası Xəzər Flotilyasının hərbi nümayəndə heyətinin rəhbəri ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanlığı arasında işçi görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan HDQ-nin komandanı kontr-admiral Sübhan Bəkirov Rusiya HDD-sı Xəzər flotiliyasının gəmilərin dəstə komandiri 2-ci dərəcəli kapitan Vladimir Zaytsevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan HDQ ilə Rusiya Federasiyası Xəzər Flotiliyası arasında dostluq münasibətləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# “TurAz Şahini - 2021” təlimlərində iştirak edən hərbçilərimizin bir qrupu Vətənə qayıdıb

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən keçirilən “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimində iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin bir qrup heyəti və aviasiya vasitələri Vətənə qayıdıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 1-dən 17-dək Türkiyə Respublikasının Konya şəhərində keçirilən birgə taktiki-uçuş təlimində qarşıya qoyulan bütün döyüş tapşırıqları hər iki ölkənin hərbi pilotları tərəfindən uğurla icra olunub.

# Ölkəmizdə turizmin beynəlxalq səviyyədə inkişafı reallıqdır





Əvvəli 1-ci səh.

Turizmin inkişafı, ilk növbədə, ölkənin ali qanunvericilik aktlarında öz əksini tapmışdır. Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edilmiş, 27 iyul 1999-cu ildə Ulu Öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalamışdır.

Dünyanı çənginə alan COVID-19 pandemiyasının çətinlikləri, iqtisadi və mənəvi cəhətdən yaratdığı problemlər, habelə Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasətinə qarşı ötən ilin sentyabrında baş verən 44 günlük Vətən müharibəsi ölkə turizminə təsirsiz ötüşməmişdi. Buna baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində respublikamızda turizm müasir həyat tərzinin və mədəniyyətin mühüm atributu, beynəlxalq əlaqələrin mühüm forması kimi inkişaf etdirilir. Müasir dünyada qlobal əhəmiyyətə malik olan turizm sahəsi həm də sosial və iqtisadi əlaqələri tənzimləməklə müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlərlə yanaşı, biznes maraqlarını da gücləndirir.

Ekspertlərin fikrincə, Qarabağın işğaldan azad olunması Azərbaycan turizminin inkişafına güclü təkan verəcək. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə - Ağdama, Zəngilana, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Şuşaya və Hadruta səfərləri zamanı dəfələrlə vurğulamışdır ki, erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Azərbaycan xalqı buna inanır, öz rəhbərinin qurucu və yaradıcı lider olduğunu yaxşı bilir. Turizm həvəskarları əmindirlər ki, bu yerlərə yaxın gələcəkdə dünyanın hər tərəfindən böyük insan axını olacaq. Dövlət başçımız deyib: "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək - Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".



Bu bölgəyə turist axını üçün əlverişli coğrafi şərait yaratmaq labüddür. Xudafərin vasitəsilə İrandan, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq.

Hazırda Prezidentin sərəncam və tövsiyələrinə əsasən, Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və siyasətini hazırlayır. Söz yox ki, turizm məhsullarının hazırlanması həmin ərazilərdə bu sahənin infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq turizm məhsulları da yaradılacaq. Nəqliyyat infrastrukturunun, mülki infrastrukturların qurulmasına və investisiya qoyuluşu üçün imkanların yaradılmasına artıq start verilmişdir. Dünya standartlarına uyğun yollar çəkilir, tarixi mədəni və dini abidələr bərpa edilir, hava limanları inşa edilir və s. Şuşada və Daşaltı kəndində turizm sahəsində görüləcək işlərə dair konsepsiya hazırlanır. Ölkə rəhbərliyinin tapşırığı ilə bu sahədə görüləcək işlər sırasında hətta Qarabağda "dark turizm" də yaradılacaq. "Dark" ingilis sözüdür, tərcümədə qaranlıq deməkdir. Xatırladaq ki, İngiltərədə London Tauer, 1937-ci ildə ABŞ-ın Nyu Cersi ətrafında baş verən gəmi aşması ilə bağlı yer, Krımın Sevastopol şəhərində Böyük Vətən müharibəsi ilə bağlı abidə kompleksi, 1986-cı ildə baş vermiş Çernobl qəzası, Yaponiyanın Xirosima şəhərindəki "Memorial park", habelə Türkiyənin özündə belə turizmi tərənnüm edən Çanaqqala şəhəri var.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev mətbuata açıqlamasında bildirib ki, yaxın müddətdə bu barədə ictimaiyyətə geniş məlumat veriləcəkdir. Qarabağda "dark turizm"in ölkəmiz üçün nə dərəcədə önəmli olacağını diqqətə çatdıran F.Nağıyevin fikrincə, bu həm xarici turistlərin marağını cəlb edəcək, həm də gələcək nəsillər üçün bir xatırlatma olacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları çərçivəsində son illər Azərbaycanda da belə mümunələr - Qubada baş verən genosid üçün abidə kompleksi, dənizkənarı ərazidə Hərbi Qənimətlər Parkı yaradılıb. Qarabağda yaradılacaq "dark turizm" kompleksi isə sırf şəhərin və şəhər ətrafında qəbiristanlıqların viranə qoyulması ilə bağlı olacaq.

Burada əsas məqsəd ölkənin tarixi əhəmiyyəti, bölgədə zaman-zaman törədilmiş faciələrin həm gələcək nəsillərə, həm də turistlərə çatdırılmasıdır. Bu turizm genosidin baş verdiyi hadisəni özündə əyani şəkildə əks etdirir. Məcazi mənada turist müəyyən dağıntı sahəsinə gələndə ilk olaraq onda erməni vandalları barədə daha ətraflı təəssüratlar yaranır və həmin şəxslər sonradan bölgənin digər ərazilərində də törədilən erməni vəhşiliyi və döyüşlər barədə məlumat əldə etməyin marağında olurlar. Qarabağın bəzi ərazilərində dağıntıların bir qismi saxlanılır və gələn turistlərə bunun tarixi barədə ətraflı məlumat verilir. Suqovuşanda və Ağdamda bu tipli turizm obyektlərinin yaradılması nəzərdə tutulub.

Azərbaycanın turizm potensialının gündən-günə daha da güclənəcəyi artıq bir reallıqdır. Qədim Şuşada, eləcə də işğaldan azad edilən bütün ərazilərdə bərpa və quruculuq işləri sürətlə davam etdirilir. Şəhərin tarixi siması saxlanılmaqla ən müasir formada bərpa edilir, dünya standartlarına uyğun turizm infrastrukturu yaradılır. Xüsusən də modern memarlıq nümunəsi olacaq yeni məscidin təməlinin qoyulması Şuşanın yaxın gələcəkdəki heyrətamiz siması olacaq. Azərbaycanın mədəniyyət və incəsənət beşiyi olan Şuşada tarixi "Xarıbülbül" festivalı və "Xarıbülbül" hoteli yenidən yaradılıb. İsa bulağı, Turşsu, Səkili bulağı, Soyuqbulaq, Yüzbulaq, Qırxbulaq, Çarıqbulaq və digər nadir təbiət möcüzələrinə sahib olan Şuşa yaxın illərdə nəinki Azərbaycanın, Cənubi Qafqazın, bütün dünyanın əsas turizm mərkəzlərindən birinə çevriləcək.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

SOCAR
SOCAR PETROLEUM QSC

Azərbaycan neftçilərini
20 Sentyabr - Neftçilər Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır!




# Ənənəvi tədrisin davamlı olması da vaksinasiyadan asılıdır

Payız aylarında koronavirusa yoluxmanın daha da artacağı barədə cəmiyyətdə narahat fikirlər var. Yaranmış suallardan biri də məktəblərdə dərslər başlayandan sonra vəziyyətin necə olacağıdır. Qeyd edək ki, sentyabrın 22-dən etibarən ilk olaraq ibtidai siniflər, sentyabrın 29-dan isə V-XI siniflər əyani tədrisə başlayacaq.

Yeni tədris ili ilə əlaqədar olaraq uşaqların məktəbə qayıtmağa hazırlaşdığı bir dövrdə virusun ötürülməsini minimuma endirmək üçün tədbirlərin görülməsi hər zamankından daha böyük və həlledici əhəmiyyət kəsb edir. Təhsil naziri Emin Əmrullayev söyləyib ki, ənənəvi tədrisin davamlı olması üçün vaksin vurdurmalıyıq. Hamının ənənəvi tədrisin bərpasını sevinclə qarşıladığını qeyd edən nazir məktəblərin hansı hallarda bağlanması məsələsinə münasibət bildirib: "Amma biz unutmamalıyıq ki, pandemiya hələ bitməyib. Nə qədər çox vaksin vurdursaq, ənənəvi dərslər o qədər davamlı olar".

## Valideynlərdən COVID pasportu tələb edilməyəcək, amma...

Təhsil Nazirliyi ölkə üzrə 85 faizə yaxın təhsil işçisinin peyvənd olunduğunu açıqlayıb. Hazırda müəllimlərin vaksinasiya prosesinin davam etdirildiyi bildirilib: "Artıq ölkə üzrə 85 faizə yaxın təhsil işçisi peyvənd olunub. Bakı şəhəri üzrə bu rəqəm 90 faizdən artıqdır. Abşeron rayonu və Gəncə şəhəri üzrə isə 95 faizə yaxın təhsil işçisi peyvənd olunub". Əks-göstəriş sertifikatı və immunitet sertifikatı olan təhsil işçiləri də məktəblərə buraxılacaq.

Hər bir məktəbdə vaksinasiya 80 faizə çatdıqdan sonra tədris əyani formaya keçir. Artıq bu proses 80 faizə çatıb. Amma bu rəqəmlə də kifayətlənmək olmaz.

Bəzi təhsil ocaqlarında sıxlığın yaranması məsələsinə aydınlıq gətirən təhsil naziri ölkəmizdə valideynə övladı üçün həm məktəb, həm də müəllim seçmək hüququnun verildiyini diqqətə çatdırıb: "Valideyn elektron qeydiyyatdan keçdikdən sonra bütün sinifləri sistemdə görür və birinci seçim edən şəxs yeri götürür. Yerlər dolduqdan sonra həmin məktəbdə valideyn yer tapa bilmir və bu da narazılığa səbəb olur. Təbii ki, hər bir məktəbin müəyyən sayda tutum yeri var və o, bitdiyi üçün yer tapmaq olmur. Buna görə də valideynlər başqa məktəbdə övladının təhsili üçün seçim edə bilərlər. Bakı şəhəri üzrə fəaliyyət göstərən məktəblərdə yerlər var". Əhalinin daha sıx yaşadığı ərazilərdə fəaliyyət göstərən məktəblərdə siniflərdə çox uşaq olduğu da bildirilir. Bunlar obyektiv səbəblərdir. Hər bir uşağın təhsil almaq hüququ var.

Cəmiyyətdə maraq göstərilən suallardan biri də valideynlərdən COVID pasportunun tələb olunub-olunmayacağı ilə bağlı idi. Qeyd edək ki, 2021-2022-ci tədris ilinin təşkilinə dair brifinqdə bu sual cavablandırıldı və belə bir tələbin olmadığı söylənildi.

## ÜST və UNICEF də Azərbaycanda məktəbləri açmağı tövsiyə edib

Xatırladaq ki, bir müddət əvvəl Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və UNICEF yüksək təhlükəsizlik tədbirlərini təmin etməklə Azərbaycanda məktəbləri açmağı tövsiyə edib. Bu barədə iki təşkilatın Azərbaycandakı nümayəndəliklərinin birgə məlumatında bildirilib.

"ÜST və UNICEF-in bəyan etdiyi kimi, bu tədbirlərə müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməyə əlçatanlığın təmin edilməsi, eləcə də sinif otaqlarının daha yaxşı havalandırılması, siniflərdə daha az şagird sayı, fiziki məsafənin gözlənilməsi, məktəb əməkdaşlarının virusa qarşı müntəzəm yoxlanılması və valideynlərin təhlükəsizlik tədbirləri haqda davamlı məlumatlandırılması kimi tədbirlər vasitəsilə məktəb mühitinin təhlükəsizlik standartlarına uyğunluq baxımından yaxşılaşdırılması daxildir", - deyə ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı diqqətə çatdırıb. O, peyvəndlənmənin "Delta" ştammı da daxil olmaqla, virusdan ən yaxşı və sürətli qorunma üsullarından biri olduğunu vurğulayıb. Müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməsi sayəsində məktəblərin daha təhlükəsiz məkan olacağını söyləyib.

İki ilə yaxındır ki, COVID-19 pandemiyası ilə yaşadığımızı və məktəblərin təhlükəsiz şəkildə yenidən açılmasının ümdə prioritetə çevrildiyini nəzərə çatdıran ÜST nümayəndəsi bildirib: "Məktəblərin qapanması uzunmüddətli dövrdə böyük mənfi təsirlərə səbəb olur və buna bəraət qazandırmaq çətindir. Hamımız uşaqlarımızın gələcəyini qorumaq naminə məktəblərin təhlükəsiz şəkildə yenidən açılması üçün çalışmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatı, Azərbaycan da daxil olmaqla, ölkələrə COVID-19 riski və virusun fərqli variantlarının yayılmasını minimuma endirmək üçün tədbirlər görərkən məktəbləri açıq saxlamağı təkidlə tövsiyə edir. Məktəblərin yenidən açılmasında mühüm rol oynayan milli vaksinasiya strategiyasının həyata keçirilməsində yerli tərəfdaşlarımızı dəstəkləyirik".

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens isə qeyd edib ki, pandemiya məktəblərin qapanmasının uşaqlar üçün böyük mənfi təsirlər göstərdiyini nümayiş etdirməklə yanaşı, tədris müəssisələrinin uşaqların təhsili, psixi sağlamlığı və sosial bacarıqları baxımından da əhəmiyyətli rol oynadığını sübuta yetirdi: "Uşaqlar və gənclər təhsillərinə bir il də fasilə verilməsi riski ilə üzləşməməlidir".

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

### Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | |
|---|---|
| Ümumi yoluxanların sayı | 470985 |
| Ümumi sağalanların sayı | 430717 |
| Aktiv xəstə sayı | 33988 |
| Ümumi test sayı | 4731381 |
| Ümumi ölüm sayı | 6280 |

| Bu gün | 18.09.2021 |
|---|---|
| Yeni yoluxanların sayı | 2042 |
| Yeni sağalanların sayı | 3224 |
| Bugünkü test sayı | 15666 |
| Bugünkü ölüm sayı | 29 |

### Azərbaycan Respublikasının ərazisində COVID-19 əleyhinə aparılan vaksinasiya ilə bağlı son vəziyyət

| Ümumi | |
|---|---|
| Vurulan vaksinlərin ümumi sayı | 7925249 |
| 1-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 4605958 |
| 2-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 3319291 |

| | 18.09.2021 |
|---|---|
| Gün ərzində vurulan vaksinlərin sayı | 61657 |
| 1-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 17226 |
| 2-ci mərhələ üzrə vaksinasiya olunanların sayı | 44431 |

# Azərbaycan Milli Musiqi Günü





## Üzeyir musiqisinin sədaları Şuşa dağlarından hər tərəfə yayıldı









Sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir bəy Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak edən nümayəndə heyəti Xalq artisti Bülbülün evini və Natəvan bulağını ziyarət edib, tanınmış şuşalılar Natəvan, Üzeyir bəy Hacıbəyli və Bülbülün heykəlləri önünə gül dəstələri qoyublar.

Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında, o cümlədən Şuşada uzun illər tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir bəy Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır.

Azad Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli də ucaldılıb. Xatırladaq ki, 1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanıb.

Hər il dahi Üzeyir bəy Hacıbəylinin ad günündə qeyd olunan tədbir, bu dəfə Şuşada, onun heykəlinin ucaldığı parkda təşkil edilib.

Tədbiri açan Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, Ulu Öndər Heydər Əliyevin fərmanına əsasən, 1995-ci ildən hər il ölkəmizin müxtəlif bölgələrində keçirilən Milli Musiqi Günü bu il Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəmir iradəsi və Müzəffər Ordumuzun rəşadəti sayəsində Şuşada təşkil olunub: "Bu gün keçirilən tədbirin xüsusi əhəmiyyəti var. Milli Musiqi Günümüz vaxtı ilə erməni vandallarının dağıtdığı və bu il avqustun 29-da Prezidentimizin iştirakı ilə açılışı olan Üzeyir bəyin heykəli qarşısında keçirilir. Digər maraqlı məqam ondan ibarətdir ki, bu gün çıxış edəcək Fikrət Əmirov adına Mahnı və Rəqs Ansamblı düz 85 il əvvəl dahi bəstəkar tərəfindən yaradılıb".

Qeyd olunub ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Şuşada icra etdiyi genişmiqyaslı restavrasiya işləri çərçivəsində ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri yüksək səviyyədə bərpa olunur.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev bildirib ki, tədbirə yalnız Üzeyir bəyin vaxtilə yaratdığı ansambl deyil, həmçinin ölkənin aparıcı sənətkarları, xalq və əməkdar artistləri, tanınmış ifaçıları qatılıb, onun adını daşıyan parkda milli musiqimizin xəzinəsi sayılan əsərləri ifa edirlər.

Nazir müavini Şuşanın mədəniyyət paytaxtı olaraq bundan sonra da bir çox yerli və xarici tədbirlərə evsahibliyi edəcəyini vurğulayıb.

Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu Şuşaya yeni həyatın qayıtdığını deyib. O, bu gözəl məkanda "Vaqif Poeziya Günləri"nin, "Xarıbülbül" festivalının keçirildiyini, tarixi və mədəni abidələrinin bərpa edildiyini söyləyib.

Daha sonra Fikrət Əmirov adına Mahnı və Rəqs Ansamblının Xalq Çalğı Alətləri Orkestrinin ifasında Üzeyir bəy Hacıbəyli, Vasif Adıgözəlov, Süleyman Ələsgərov və digər bəstəkarların əsərləri səsləndirilib. Xalq artisti Mənsum İbrahimov, Əməkdar artistlər Qoçaq Əsgərov, Anar Şuşalı, Nərgiz Kərimova, Arzu Əliyeva və digər ifaçılar milli musiqi sənətimizin bənzərsiz nümunələrini təqdim ediblər.

Qeyd edək ki, 18 sentyabr dahi bəstəkar, Azərbaycan professional musiqi sənətinin banisi, musiqişünas-alim, Şərqdə ilk operanın müəllifi kimi tanınan, ictimai xadim Üzeyir bəy Hacıbəylinin anadan olmasının 136-cı ildönümü tamam olur. Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəylinin dünyaya göz açdığı gün ölkəmizdə Milli Musiqi Günü kimi qeyd edilir. Görkəmli bəstəkarın anadan olduğu gün həm də Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalının açılışı ilə əlamətdardır. Sentyabrın 18-dən başlayaraq 24-dək davam edəcək Üzeyir bəy Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının zəngin proqramında Azərbaycanın bədii kollektivləri, solistləri ilə yanaşı, ABŞ və Polşadan dəvət olunmuş musiqiçilərin də çıxışları yer alır. Bundan əlavə, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, ordumuzun şücaəti nəticəsində tarixi ədalət bərpa edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Paytaxtı elan olunması nəzərə alınaraq, builki festivalın ilk konsertlərindən biri də Şuşa şəhərində keçirilib.

Şuşa Üzeyir musiqisi üçün çox darıxmışdı. Nəhayət ki, o gün də gəlib çatdı, azad Şuşada Azərbaycan professional musiqi sənətinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ölməz əsərləri yenidən səsləndirildi. Şuşanın dağlarından Üzeyir musiqisinin sədaları hər tərəfə yayıldı.

## Milli Musiqi Günü münasibətilə Bakı Musiqi Akademiyasının qarşısında təntənəli tədbir keçirilib



Sentyabrın 18-də Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının qarşısında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir bəy Hacıbəylinin doğum gününə və Milli Musiqi Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər.

Mədəniyyət naziri Anar Kərimov musiqi bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edərək vurğulayıb ki, hər il olduğu kimi, bu il də dahi bəstəkarın doğum günü ölkəmizdə geniş şəkildə qeyd edilir. Xalqımızın musiqi mədəniyyəti tarixində Üzeyir bəy Hacıbəylinin böyük rol oynadığını söyləyən nazir görkəmli bəstəkarın Azərbaycanın dilbər güşələrindən olan Şuşa şəhərində dünyaya göz açmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Vurğulanıb ki, Üzeyir bəy Azərbaycan mədəniyyətində köklü dönüş yaratmış bəstəkardır. Böyük bəstəkarın doğum gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Ümummilli Liderimizin 1995-ci ildə - dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Artıq neçə ildir, xalqımız bu bayramı qeyd edir.

Vurğulanıb ki, builki Milli Musiqi Günü əvvəlki illərdəkindən fərqli keçirilir. Belə ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız düşmən tapdağından azad olunub və Üzeyir bəyin əsərləri bu gün doğulduğu doğma Şuşa şəhərində səslənir.

Bildirilib ki, Heydər Əliyevin mədəniyyət xadimlərinə göstərdiyi qayğının davamı kimi Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı da göz qabağındadır. Bu qayğının nəticəsi olaraq Üzeyir bəy Hacıbəylinin yubileyi bir neçə dəfə UNESCO səviyyəsində qeyd edilib. 2009-cu ildən etibarən Heydər Əliyev Fondu Mədəniyyət Nazirliyi ilə birgə Azərbaycanda Üzeyir bəy Hacıbəyli adına festival keçirir.

Qeyd olunub ki, Üzeyir bəyin qoyduğu ənənələrə sadiq qalaraq musiqimizi inkişaf etdirməli, onu yad təsirlərdən qorumalıyıq.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli bu il rəhbəri olduğu təhsil ocağının 100 illiyinin qeyd olunduğuna diqqət çəkərək söyləyib ki, istər Azərbaycan musiqisi, istərsə də bu ali təhsil ocağı Üzeyir bəyin adı ilə bağlıdır. Üzeyir bəy Hacıbəylinin musiqimizin inkişafındakı xidmətlərini qeyd edən rektor deyib ki, Üzeyir bəy bütün zamanlarda musiqi ictimaiyyəti və insanların qəlbində daim yaşayacaq. Rektor builki musiqi bayramı çərçivəsində azad Şuşada da tədbir və konsert proqramlarının təşkil edilməsini sevinc və fərəh hissi ilə qarşıladığını qeyd edib.

Xalq artisti dahi bəstəkarın zəngin həyat və yaradıcılığından söhbət açıb, milli Azərbaycan musiqisinin inkişafında Üzeyir bəy Hacıbəyli məktəbinin rolunu xüsusilə vurğulayıb.

Sonra Müdafiə Nazirliyinin Nümunəvi və Əlahiddə Hərbi Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında klassik musiqi nümunələri təqdim olunub.

## Milli Konservatoriyada Üzeyir Günü qeyd edilib

Azərbaycan Milli Konservatoriyasında 18 sentyabr - Milli Musiqi Günü münasibətilə konsert proqramı təqdim olunub.



AZƏRTAC xəbər verir ki, konsertdən əvvəl çıxış edən konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi Milli Musiqi Gününün əhəmiyyətindən söhbət açıb.

O, bu günün dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin adı ilə bağlı olduğunu söyləyib. Görkəmli bəstəkarın zəngin həyat və yaradıcılığından danışmaqla yanaşı, onun milli Azərbaycan musiqisinin inkişafındakı xidmətlərini xüsusi qeyd edib. Bildirib ki, bu bayram tədbiri bu il ölkəmizdə yeni ab-havada qeyd olunur. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız düşmən tapdağından azad olunub və Üzeyir bəyin əsərləri bu gün doğulduğu doğma Şuşa şəhərində səslənir.

Mədəniyyət naziri Anar Kərimov bayram münasibətilə musiqisevərləri təbrik edib, festivalının əhəmiyyətindən, bu tədbirin ölkəmizin dünyada musiqi diyarı kimi tanınmasındakı rolundan bəhs edib. "Çox sevinirik ki, bu gün musiqi gününü qeyd edəndə doğma Qarabağımız, Şuşamız azaddır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz bu sevinci bizə yaşadıb. Bu gün bu festivalı Şuşada da qeyd edirik. Beləliklə, Üzeyir bəyin və digər Şuşadan olan görkəmli mədəniyyət və incəsənət xadimlərinin ruhları şaddır", - deyə nazir vurğulayıb.

Festivalın konsertlərinin Ağdamda, Gəncədə də təşkil ediləcəyini bildirən nazir deyib: "Artıq biz Şuşada - mədəniyyətimiz paytaxtında "Xarıbülbül" Musiqi Festivalını və "Vaqif Poeziya Günləri"ni keçirmişik. Gələn ildən Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalının da böyük bir hissəsini Şuşada keçirəcəyik. Beləliklə, Azərbaycan mədəniyyətini, Üzeyir bəy Hacıbəyli mirasını və ölməz əsərlərini bir daha dünyaya təqdim edəcəyik".

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli deyib ki, bu il bu bayramı başqa bir əhvali-ruhiyyədə keçiririk: "Üzeyirin musiqisi hər zaman bizimlədir. Onun yaratdıqları bütün zamanlarda yaşayacaq. Musiqimizin uğurları Üzeyir bəylə bağlıdır. Azərbaycan musiqisinin bu səviyyəyə gəlib çatması onun dühasının məhsuludur. Üzeyir bəy hər yerdə var və onun əsərləri hər zaman sevilə-sevilə dinlənilir".

Sonra musiqi proqramı təqdim edilib. Azərbaycan Milli Konservatoriyası Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə Əməkdar artist Təyyar Bayramov, xanəndələr Rəvanə Əmiraslanova və Aytən Məhərrəmovanın ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

## Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin xatirəsi anılıb

Milli Musiqi Günü münasibətlə sentyabrın 18-də mədəniyyət və incəsənət xadimləri Fəxri xiyabanda Üzeyir bəy Hacıbəylinin və digər musiqi xadimlərinin məzarlarını ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, mərasimdə mədəniyyət naziri Anar Kərimov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi və başqaları iştirak ediblər.

Tədbir iştirakçılarını musiqi bayramı münasibətilə təbrik edən A.Kərimov bildirib ki, 18 sentyabr sadəcə musiqisevərlərin deyil, həm də bütün Azərbaycan xalqının bayramıdır: "Bu gün mədəniyyətimizin ən əlamətdar günlərindən birini yaşayırıq. Yadınızdadırsa, keçən il burada qeyd etdik ki, gələn il bu günü Şuşamızda keçirək. Şükürlər olsun ki, biz bu günü görə bildik. Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz Şuşanı düşməndən azad etdi. Mən bir daha Vətən müharibəsində canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm. Bu gün Üzeyir Hacıbəylinin ruhu şaddır".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə çıxışında Üzeyir bəy Hacıbəylinin musiqi dahisi kimi mədəniyyət tariximizdə rolunu qeyd edərək onu Şərqin Motsartı adlandırıb. Söyləyib ki, nə qədər ki Azərbaycan xalqı var, dahi bəstəkarın ölməz irsi hər zaman yaşayacaq.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi də dahi bəstəkarın ölməz irsindən söz açaraq, Milli Musiqi Gününün azad Şuşaya qayıtdığını vurğulayıblar.

Sonda Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər - Xalq artisti Gülbacı İmanova) ifasında Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasından "Şəbi-hicran" kompozisiyası səsləndirilib.

## *Mənsum İBRAHİMOV:* "Şuşada hər zaman "Qarabağ şikəstəsi", Üzeyir bəyin əsərləri səslənib"

"Bu gün dahi Üzeyir bəyimizin doğum gününü məhz Üzeyir bəyin heykəli qarşısında, Şuşamızda qeyd edirik. Zəfərimizdən sonra ilk dəfədir Milli Musiqi Günümüzü Üzeyir bəyin heykəli önündə keçiririk. Bu, çox gözəl hisslərdir. Sözlə ifadə etmək çox çətindir".



Bu sözləri sentyabrın 18-də AZƏRTAC-a açıqlamasında Üzeyir bəy Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalında iştirak etmək üçün Şuşaya gələn Xalq artisti Mənsum İbrahimov söyləyib.

Xalq artisti bildirib ki, biz buna görə ordumuza, şəhidlərimizə, qazilərimizə, Ali Baş Komandanımıza borcluyuq: "Çünki bu qüruru, bu bayramı bizə onlar yaşatdılar. Bura gələn hər kəs görür ki, igidlərimiz Cıdır düzündən, qayalardan necə dırmaşıb bu şəhəri azad ediblər, Şuşanı öz tarixi sahiblərinə qaytarıblar. Bundan sonra biz burada əbədi yaşayacağıq. Burada hər zaman çal-çağır olub, hər zaman muğam səslənib, Qarabağ şikəstəsi səslənib, Üzeyir bəyin əsərləri səslənib. Bu gün də Leyli-Məcnun səslənəcək, "Qarabağ şikəstəsi" səslənəcək. Bundan böyük qürur hissi ola bilməz, Allah dövlətimizi daim var eləsin".

"Şuşanın girişində bayraqlarımızı görürük, türk bayrağı ilə qoşa dalğalanır və hər zaman bir millət olaraq bu qardaşlığı davam etdirəcəyik. Musiqiçilərimizi, xalqımızı təbrik edirəm. Hər kəsə gözaydınlığı verirəm ki, bu gün biz artıq azad Şuşadayıq", - deyə o əlavə edib.

Yeni dərs ili qarşısında

# Ağstafanın sərhəd kəndlərində məktəblər yeni dərs ilinə hazırdır

Ağstafa rayonu Ermənistanla 16 kilometr həmsərhəddir. Ötən illər ərzində düşmənlə üz-üzə dayanmış Köhnəqışlaq, Yadullu və Tatlı kəndlərinin sakinləri öz ata-baba yurdlarını tərk etməmiş, düşmən gülləələri altında gündəlik işləri ilə məşğul olmuşlar. Hər üç kəndin sakinləri Azərbaycan Ordusunun gücünə güvənərək gec-tez ədalətin zəfər çalacağına inanmışlar və 44 günlük Vətən savaşı göstərdi ki, onların bu inamı əbəs deyilmiş.



Köhnəqışlaq kəndində 190 ev var. 103 hektar pay torpağı ilə təmin edilən kənd əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olur. Onu da qeyd edək ki, kənd Qarabağ müharibəsi başlayandan 15 şəhid verib.

Kənddə 35 yerlik uşaq bağçası, ATS, klub, kitabxana, polis məntəqəsi fəaliyyət göstərir. Kəndin yolu da yenidən qurulub. Bundan əlavə, kənddə 5 artezian quyusu qazılıb. Kənd məktəbi isə Heydər Əliyev Fondunun təşəbbüsü və yardımı ilə 2017-ci ildə tikilib. Məktəbdə tədrisin yüksək səviyyədə təşkili üçün bütün şərait var. Müasir laboratoriyalar, fənn kabinələri, idman zalı, bufet şagirdlərin ixtiyarındadır.

Rayon təhsil şöbəsinin yeni dərs ilinin başlaması ərəfəsində ən çox diqqət yetirdiyi sərhəd kəndlərindəki məktəblərdir. Bu günlər şöbənin, eləcə də rayon gənclər və idman idarəsinin rəhbərliyi sərhəd kəndlərində yerləşən tədris ocaqlarının yeni dərs ilinə hazırlığının vəziyyəti ilə tanış olmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Gəncədə Bilik Günü münasibətilə tədbir keçirilmişdir





Gəncə Şəhər İcra Hakimiyyətinin və Təhsil İdarəsinin təşkilatçılığı, Gəncə İş Adamları İctimai Birliyinin dəstəyi ilə 15 Sentyabr - Bilik Günü münasibətilə 18 nömrəli tam orta məktəbdə bir qrup valideynlə görüş keçirilmişdir.

Görüşü ŞİH başçısının birinci müavini Səməd Tomuyev açaraq Bilik Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirmişdir ki, Azərbaycanda dövlət səviyyəsində olan diqqət və qayğıkeşlik nəticəsində bu gün təhsilimiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Sonra Gəncə İş adamları İctimai Birliyinin sədri Zəfər Məmmədov və şəhər təhsil idarəsinin rəisi Anar Qədiməliyev təhsilimizdəki nailiyyətlərdən danışmış və pedaqoji kollektivləri və şagirdləri 15 Sentyabr - Bilik Günü münasibətilə təbrik etmişlər.

Sonda bir qrup aztəminatlı ailələrin məktəbli övladlarına dərs ləvazimatları hədiyyə olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Regionlarda yeni məktəb binaları tikilir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ayrılan vəsait hesabına Qobustan rayonunun ən iri yaşayış məntəqələrindən olan Sündü kəndində Ş.Şikarov adına tam orta məktəb üçün yeni bina inşa edilir. İkimərtəbəli bina 360 şagird yerlikdir. Müasir arxitektura üslubunda inşa edilən məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılacaq. Artıq binada hörgü işləri başa çatıb, son tamamlama işləri gedir.

Ağsu rayonunun iri yaşayış məntəqələrindən olan Ərəbuşağı kəndində də tam orta məktəb üçün yeni bina inşa olunur. Tədris ocağı Təhsil Nazirliyinin sifarişi ilə inşa edilir. Zirzəmi və iki mərtəbədən ibarət olan bina 360 şagird yerlikdir. Burada da təhsilin müasir tələblər səviyyəsində aparılması üçün bütün lazımi şərait yaradılacaq. İstilik sistemi ilə təchiz ediləcək tədris ocağında 30-dək sinif otağı, xüsusi avadanlıqlarla təmin edilən laboratoriyalar, qış idman zalı fəaliyyət göstərəcək. Həyətyanı sahədə futbol, voleybol meydançaları, habelə müxtəlif idman avadanlıqlarından ibarət meydança qurulacaq. 3996 kvadratmetr ərazisi olan tədris ocağının tikintiyə və idman meydançasına aid olmayan sahəsində park salınacaq. Bu da ərazinin, demək olar ki, yarısını əhatə edəcək. Parkın su təchizatı üçün artezian quyusunun qazılması da nəzərdə tutulub. Hazırda işlər sürətlə davam etdirilir. Tədris ocağı cari ilin sonunadək başa çatdırılacaqdır.



İsmayıllı rayonunun Sumağallı kəndində 42 ildən artıq istifadədə olan, son illər çoxlu şagird sıxlığı ilə üzləşən məktəb binası həm də istismara yararsız olduğundan Təhsil Nazirliyinin sifarişi ilə burada müasir standartlara cavab verən yeni orta məktəb binası tikilir. Layihəyə əsasən, məktəbdə təhsilin yüksək səviyyədə təşkili məqsədilə bütün lazımi şərait yaradılacaq. 264 şagird yerlik ikimərtəbəli binada 14 sinif otağı, fənn kabinetləri, kompüter otağı, laboratoriyalar, akt və idman zalları, yeməkxana olacaq. Habelə idmanın müxtəlif növləri üzrə açıq meydançalar qurulacaq. Kənd məktəbi üçün təzə binanın inşasına ötən ilin noyabr ayından başlanılıb. Binanın bu ilin sentyabr ayında başa çatdırılması nəzərdə tutulur.

Lənkəran rayonunun ucqar dağlıq ərazisində yerləşən Gəgiran kənd tam orta məktəbi üçün tikilmiş 264 yerlik yeni tədris binası isə artıq istifadəyə verilib.

Respublikamızda ənənəvi məktəb binalarının tikintisi ilə yanaşı, modul tipli məktəblərin quraşdırılması da sürətlə davam etdirilir. Beləliklə, dövlət başçısının göstərişinə uyğun olaraq, regionlarda modul tipli məktəblərin quraşdırılması sürətləndirilir. Ölkəmizin şimal bölgəsində, ucqar ərazilərdə, xüsusilə dağ kəndlərində modul tipli məktəblərin tikintisi layihəsi yaxın iki il ərzində başa çatdırılmalıdır.

Ölkəmizin şimal bölgəsində Quba rayonunun Kunxırt kəndində 20 şagird yerlik yeni modul tipli məktəb artıq quraşdırılıb. Sakinlərin və təhsil ekspertlərinin fikri nəzərə alınmaqla, 1968-ci ildən istismarda olan məktəb binası tamamilə yararsız və istifadəsiz hala düşdüyündən quraşdırılmış modul tipli tədris ocağı yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək. Dörd sinif, müəllimlər otağı və yeməkxanadan ibarət olan məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunub. Yeni məktəbdə ibtidai siniflərin şagirdləri təhsil alacaq. Ümumilikdə, Qubada 24 modul tipli məktəb var ki, bunlardan 8-i ötən il quraşdırılıb.

Qubanın Birinci Nügədi kəndindəki 792 şagird yerlik məktəb binası istismara tam hazırdır, Zərdabi qəsəbəsində isə 850 yerlik təhsil ocağının inşası davam etdirilir. Yaxın günlərdə rayonun Digah kəndində 350 şagird yerlik müasir tipli yeni məktəb binasının tikintisinə başlanılacaq.

Bərdə rayon Məşədiibişli kənd ibtidai məktəbi üçün də yeni modul tipli bina quraşdırılıb. Binanın tikinti-quraşdırma işləri Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" 2020-ci il 8 avqust tarixli sərəncamı ilə ayrılan vəsait hesabına həyata keçirilib. 20 şagird yerlik məktəb binası 5 sinif otağı, müəllimlər otağı və sanitar qovşaqdan ibarətdir. Məktəb lazımi inventar və avadanlıqlarla tam təmin edilib. Həyəti abadlaşdırılıb, səkilərə və meydançaya asfalt döşənib.

Məlumat üçün bildirək ki, modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin tikintisində əsasən yerli istehsal məhsullarından istifadə edilir.

İctimaiyyəti məmnun edən həm də odur ki, cari ildən işğaldan azad edilmiş ərazilərdə məktəb tikintisinə start veriləcəyi bildirilir. Artıq Zəngilan rayonunun Ağalı kəndində salınan "Ağıllı kənd" layihəsi çərçivəsində müasir tipli ümumtəhsil ocağının tikintisinə başlanmışdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Güney-Zağalı su anbarı ətrafında ekoloji aksiya keçirilib

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) törəmə müəssisəsi "Daşkəsən Dəmir Filiz" (DDF) MMC-nin təşəbbüsü, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) dəstəyi ilə Daşkəsən rayonunda yerləşən Güney-Zağalı su anbarının ətrafında ekoloji aksiya keçirilib.

Güney-Zağalı su anbarı Daşkəsən şəhərindən 8 kilometr cənubda, Xoşbulaq və Zağalı kəndlərinin arasında - Qoşqarçay dərəsində yerləşir. Qoşqarçay və Hamamçayın suyu ilə qidalanan su anbarı 1959-cu ildə layihələndirilmiş, 1969-cu ildə inşası başa çatdırılmışdır. Su anbarı Azərbaycan Dağ-Mədən Filizsaflaşdırma Kombinatının Saflaşdırıcı fabrikində nəm üsulla konsentrat istehsalı üzrə texniki suya tələbatın ödənilməsi məqsədilə inşa edilmişdir. Qeyd edilən dövrdə illik 1 milyon ton konsentratın istehsalı üçün su anbarından 3 milyon kubmetr həcmində su təchiz edilirdi. Gələcəkdə nəzərdə tutulan illik 1.2 milyon ton konsentratın istehsalı üçün su anbarından təchiz ediləcək sərfiyyat 3.6 milyon kub metr təşkil edəcək. Hazırda DDF MMC-nin balansında olan hövzənin ümumu su həcminin artırılması və su ehtiyatının mühafizəsi üçün müvafiq tədbirlər görülür. Su ehtiyatının daha səmərəli istifadəsi məqsədilə Güney-Zağalının deqradasiyaya məruz qalmış infrastrukturu yenidən qurulur.

18 Sentyabr Beynəlxalq Sahilyanı Təmizlik Gününə həsr edilmiş aksiya çərçivəsində "AzerGold" QSC və ETSN-nin əməkdaşlarının iştirakı ilə su hövzəsinin ətrafı müxtəlif məişət tullantılarından təmizlənib, tullantılar çeşidlənərək təkrar emala yönəldilib. Bununla yanaşı, əraziyə ətraf mühitin mühafizəsinə dair maarifləndirici lövhələr yerləşdirilib.

Tədbirin əsas məqsədi su hövzələrində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin tullantılarla zibillənməsinin qarşısını almaq və təbiətin qorunmasına töhfə verməkdir.

Aksiya çərçivəsində həmçinin balıq növlərinin təbii populyasiyasının artırılması məqsədilə su hövzəsinə yerli şəraitə uyğun olaraq qızılxallı forel körpələri buraxılıb. Balıqların suya buraxılması mərasimində ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, DDF MMC-nin baş direktoru Oqtay Məmmədov iştirak edib.

Beynəlxalq Sahilyanı Təmizlik Günü su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn irimiqyaslı aksiyaların keçirildiyi təqvimdir. Son 30 il müddətində dünyanın 100-dən çox ölkəsi hər il bu günü qeyd edir. Bu məqsədlə bütün dünya üzrə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyir.

## Beynəlxalq aləm

# Almaniya parlament seçkiləri ərəfəsində

## AFR-in yeni kansleri kim olacaq



Sentyabrın 26-da Almaniyada keçiriləcək parlament seçkilərinin günü yaxınlaşdıqca, orada gələcək hökumət koalisiyasının perspektivləri də bir o qədər fəal müzakirə edilir. Partiyaların heç birinin 30 faiz səs qazanmayacağı halda yeni koalisiyanın formalaşdırılması üçün 3, bəlkə də 4 siyasi qüvvənin razılığı tələb olunacaq. Bu, hansı partiyalar olacaq və kim - mühafizəkarlar, yaxud sosial-demokratlar lider rolunu öz üzərlərinə götürəcəklər? Hələ ki, bunu yalnız ehtimal etmək olar.

YouGov tədqiqat şirkətinin dərc etdiyi sorğunun nəticələrinə görə, əgər ümumi səsvermə bu bazar günü baş tutsaydı, nəticə belə olardı: Almaniya Sosial-Demokrat Partiyası (ASDP) - 25 faiz, Xristian-Demokratik və Bavariya Xristian-Sosial ittifaqlarından (XDİ və XSİ) olan mühafizəkarlar - 20 faiz, "Yaşıllar" partiyası - 15 faiz səs. Nisbətən kiçik partiyalardan Bundestaqda yəqin ki, Azad Demokratik Partiya (ADP, 10 faiz), "Almaniya üçün alternativ" (11 faiz) və "Solçular" (8 faiz) yer alacaq. Rəqəmlər dəyişə bilər, lakin bütün sorğular göstərir ki, bu dəfə nə birpartiyalı, nə də əvvəllər olduğu kimi, ikipartiyalı hökumət yaratmaq mümkün olacaq. Deməli, yaxın 5 ildə Almaniyanı hansı koalisiyanın idarə edəcəyi sualının cavabı hələ açıq qalır.

2005-ci ildə XDİ ilə ASDP arasında ilk hökumətin formalaşdırılması üçün danışıqlar iki ay vaxt aparmışdısa, bu dəfə Angela Merkel çətin ki, postunu yeni kanslerə belə tez ötürə bilsin. Çox güman ki, Merkel hökumətin sədri kürsüsündə ən azı Miladadək qalacaq. Məsələn, keçən dəfə XDİ, XSİ və ASDP arasında koalisiya müqaviləsi 2017-ci ilin sentyabr seçkilərindən təxminən yarım il sonra imzalanmışdı.

Seçkilər yaxınlaşdıqca siyasi debatlarda "sarı", "qırmızı", "yaşıl", "qara" sözləri də bir o qədər tez-tez səslənir. Bu, mümkün koalisiyaları tanıtmaq üçün siyasi birliklərin ənənəvi olaraq istifadə etdikləri rənglərdir. Burada yalnız "mavi" rəng xüsusi yer tutur - ifrat sağçılara doğru yuvarlanan "Almaniya üçün alternativ" partiyasının sağçı populistləri ilə ölkədə heç kim hökumət qurmaq istəmir.

Elə əsas mümkün kombinasiyaları da barmaqla saymaq olar. Bu zaman ənənəvi olaraq "Böyük koalisiya" - XDİ/XSİ mühafizəkarları ilə ASDP-nin ittifaqı xatırlanır. Lakin onların hökuməti formalaşdıra biləcəkləri hələ sual altındadır. Belə ki, ASDP-nin hökuməti formalaşdırmaq üçün mandat əldə etmək şansının daha çox olduğunu nəzərə alsaq, bu halda XDİ-ni koalisiya üçün kiçik tərəfdaş rolu gözləyir. "Mən koalisiyaya kiçik tərəfdaş kimi daxil olmaq istəmirəm" deyən mühafizəkarların namizədi Armin Laşet səslərin əksəriyyətini qazanmaq və kansler postuna öz namizədliyini irəli sürmək hüququ əldə etmək üçün mübarizə aparacağını bildirib. Digər variantlarda isə kiçik partiyalarsız ötüşmək mümkün olmayacaq. Onu da qeyd edək ki, kiçik partiyalar hökumətin formalaşmasının onlardan asılı olduğunu anlayaraq, koalisiya sazişinin ən yaxşı şərtlərini əldə etmək üçün bütün səylərdən istifadə edəcəklər. Demək, danışıqlar aylarla uzana bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Türkiyə tərəfi "MED 9" zirvə toplantısının bəyannaməsinə kəskin etiraz edib




"Avropa İttifaqına üzv olan doqquz ölkə (Fransa, Cənubi Kipr, Xorvatiya, İspaniya, İtaliya, Malta və Portuqaliya) tərəfindən sentyabrın 17-də Afinada keçirilən "MED 9" zirvə toplantısında qəbul olunmuş ortaq bəyannamədə Şərqi Aralıq dənizi, Kipr və qanunsuz miqrasiyaya aid müddəalar əvvəlki illərdə olduğu kimi, qərəzlidir, həqiqəti əks etdirmir və reallıqdan uzaqdır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Xarici İşlər Nazirliyinin sözçüsü Tanju Bilgiç mövzu ilə bağlı açıqlamasında ifadə edərək sözügedən sənədə kəskin etirazını bildirib.

Nazirliyin rəsmisi vurğulayıb ki, sözügedən bəyannaməni imzalayan Avropa İttifaqı ölkələrini həmrəylik adı altında Yunanıstan və Cənubi Kiprin arxasınca kor-koranə gedərək birtərəfli və tərəfkeş mövqe sərgiləməkdən çəkinməyə dəvət edirik.

# Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik Özbəkistana keçib

Tacikistanda keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) yubiley zirvə görüşündə bu təşkilata sədrlik Özbəkistana keçib.

AZƏRTAC Tacikistan Prezidentinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, görüşdə ŞƏT-in üzvü olan dövlətlərin rəhbərləri, müşahidəçi ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Tədbirdə ŞƏT-in 20 il ərzində əsas fəaliyyəti, təşkilatın qarşısında duran prioritet vəzifələr, çoxplanlı əməkdaşlığın genişləndirilməsi, qlobal və regional məsələlər ətrafında geniş müzakirələr aparılıb.



Zirvə görüşündə ŞƏT-ə sədrlik 2020-2021-ci illərdə Özbəkistana keçib. Təşkilatın zirvə görüşü 2021-ci ildə Özbəkistanda keçiriləcək.

Azərbaycan ŞƏT-də dialoq üzrə tərəfdaş qismində çıxış edir.

# Əfqanıstanda 10 milyon uşağın təcili olaraq humanitar yardıma ehtiyacı var

Beynəlxalq Uşaq Fondu (UNICEF) BMT-nin rəhbərliyinə müraciət edərək təcili sürətdə Əfqanıstan uşaqları üçün humanitar yardım ayırmağa çağırıb.

AZƏRTAC xəbər verir ki, UNICEF-in hesablamalarına görə, bu gün Əfqanıstanda 10 milyon uşağın təcili olaraq humanitar yardıma ehtiyacı var. Əfqanıstandan ezamiyyətdən qayıdan təşkilatın nümayəndəsi Sem Mort bildirib ki, bu ölkədə uşaqlar qida, su, dərman preparatları, tibbi xidmət çatışmazlığından əziyyət çəkirlər. Uşaqların təhsil, tərbiyəsi və asudə vaxtlarının səmərəli keçirilməsi məsələlərindən isə ümumiyyətlə söhbət gedə bilməz. Uşaqlar nəinki COVID-19 virusuna qarşı, adi xəstəliklərə qarşı peyvəndlərdən belə məhrum olublar. Xəstələnən uşaqlar tibbi yardımın olmaması səbəbindən ölürlər.

BMT-nin Qaçqınların işi üzrə ali komissarı Filippo Qrandi bildirib ki, yaxın günlərdə Əfqanıstana humanitar yardım göndərilməsə, əhalinin vəziyyəti olduqca pisləşəcək. Bundan ən çox əziyyət çəkən isə uşaqlar olacaq. Onun sözlərinə görə, Əfqanıstanı bu vəziyyətə salanlar beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Dünyanın gözü qarşısında uşaqlar məhv olur.

# NEFTÇİLƏR GÜNÜ

Neftçilər Günü münasibətilə neft sənayesi işçilərinə,
dost və qardaş Azərbaycan xalqına daha böyük uğurlar arzulayırıq.

TEKFEN İNŞAAT


# Rza Deqqəti Nizami Gəncəvinin ermənilər tərəfindən dağıdılmış büstü barədə paylaşım edib



Azərbaycan əsilli tanınmış fransız fotojurnalist Rza Deqqəti öz sosial media hesabında dahi şair Nizami Gəncəvinin ermənilər tərəfindən dağıdılmış büstü barədə paylaşım edib.

Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Məşhur fotoqraf öz paylaşımında tarixi faktlara istinad edərək, XVII əsrdə yaşamış fransız şərqşünas Barthelemy d'Herbelot de Molainville tərəfindən Nizami Gəncəvinin fəlsəfi düşüncəsi barədə yazılmış fikirləri xatırladıb.

Rza Deqqəti dünya şöhrətli şairin anadan olmasının 880 illik yubileyinin bu il Azərbaycanda ölkə miqyasında qeyd olunduğunu da nəzərə çatdırıb.

Qeyd edək ki, R.Deqqəti beynəlxalq sərgilərdə mütəmadi olaraq Azərbaycan həqiqətlərini çəkdiyi şəkillər vasitəsilə dünya ictimaiyyətinə çatdırır. Sözügedən şəkillər onun ADA Universiteti ilə birgə həyata keçirdiyi "Soul of Karabakh" ("Qarabağın ruhu") layihəsi çərçivəsində hazırlanan veb-saytda və broşürlərdə əksini tapacaq.

Rza Deqqəti paylaşdığı şəkil və video ilə burada tanış olmaq mümkündür:
https://bit.ly/3ze2Shm

# Qusar rayonunda leysan nəticəsində köməksiz vəziyyətdə qalan vətəndaşlar xilas edilib

Yağan güclü leysan yağışları nəticəsində Qusar rayonunun Urva kəndi istiqamətində bir qrup vətəndaşın köməksiz vəziyyətdə qalması barədə Fövqəladə Hallar Nazirliyinin (FHN) - 112 - qaynar telefon xəttinə məlumat daxil olub.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumat əsasında hadisə yerinə nazirliyin mülki müdafiə qoşunlarının müvafiq qüvvələri cəlb edilib.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən olunub ki, əkin sahələrində təsərrüfat fəaliyyəti üçün gəlmiş 35 nəfər vətəndaş, habelə 1 avtonəqliyyat vasitəsi yağan güclü leysan yağışları səbəbindən ərazini tərk edə bilməyib və köməksiz vəziyyətdə qalıb.

Yolların çətin keçilməsi və hərəkət imkanının məhdud olmasına baxmayaraq, həyata keçirilmiş xilasetmə əməliyyatı nəticəsində vətəndaşlar və avtonəqliyyat vasitəsi təhlükəsiz əraziyə təxliyə olunub.

# Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 18-21°, gündüz 25-28° isti, Bakıda gecə 18-20°, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 19-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 29-34° isti, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 30-35° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 20-24° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-18° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 25-29° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25° isti, dağlarda gecə 5-9°, gündüz 13-18° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 29-34° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-19°, gündüz 25-28° isti, dağlarda gecə 12-14°, gündüz 17-20° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91
"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13
"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53
"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24
"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01
"Səma-M" MMC (012) 594-09-59
"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22
"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00
"City press" MMC (055) 819-09-26

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular! Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


# ALLAH RƏHMƏT ELƏSİN!

Səfa Mirzəyev və Firudin Hacıyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Sabir İlyasova qardaşı

**VAQİF İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Binəqədi rayon prokurorunun müavini Ramin Nağdəliyevə anası

**LİMONA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4985
Sifariş 1701
Qiyməti 40 qəpik